

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 27 (717) ■ 16 iyul 2014 www.vergiler.az Qiymәti: 40 qəp.

# İqtisadi islahatlar Azərbaycanda dayanıqlı inkişafa səbəb olmuşdur

*İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

İclası giriş sözü ilə açan Prezident İlham Əliyev ilin birinci yarısında ölkəmizin bütün sahələrdə dinamik inkişaf etdiyi, qarşıya qoyulmuş vəzifələrin uğurla gerçəkləşdirildiyini diqqətə çatdırmışdır. Dövlətimizin başçısı qeyd etmişdir ki, hesabat dövründə qazanılmış uğurların təməlində düşünülmüş siyasət, sabitlik dayanır. Bildirilmişdir ki, ölkəmizin hərtərəfli inkişafına xidmət edən islahatlar qarşıdakı dövrdə də uğurla davam etdiriləcəkdir.



Azərbaycanın uğurlarının beynəlxalq miqyasda yüksək dəyərləndirildiyini diqqətə çatdıran Prezident İlham Əliyev respublikamızın kredit reytinqinin yüksək olduğunu, investisiya cəlbediciliyinin yüksəldiyini xüsusi vurğulamışdır: «Mötəbər beynəlxalq maliyyə qurumları öz proqnozlarını müəyyən edərkən, Azərbaycanın bundan sonra da uzun illər ərzində uğurlu inkişafını qeyd edirlər. Bizim islahatlarımız, eyni zamanda, müxtəlif qurumların reytinqlərində də özünü göstərir. Dünyanın aparıcı reytinq agentlikləri bizim kredit reytinqlərimizi artırırlar. Bu gün xarici maliyyə bazarlarından kredit resurslarının cəlb edilməsi üçün bizdə heç bir problem yoxdur. Əksinə, biz bu məsələyə bir qədər təmkinlə yanaşırıq. Çünki hesab edirik ki, daha çox daxili imkanlardan istifadə etməliyik. Davos Dünya İqtisadi Forumu - dünyanın bir nömrəli iqtisadi forumu Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyini yüksək qiymətləndirərək bizi 39-cu yerdə yerləşdiribdir. Hesab edirəm ki, gənc müstəqil ölkə üçün bu, çox böyük göstəricidir».

Dövlətimizin başçısı ölkəmizdə makroiqtisadi göstəricilərin müsbət olduğunu, ümumi daxili məhsulun artdığını qeyd etmiş, qeyri-neft sektorunda nəzərəçarpacaq uğurların qazanıldığını diqqətə çatdırmışdır: «Birinci altı ayda iqtisadi göstəricilərimiz çox müsbətdir - iqtisadiyyat 2,1 faiz artmışdır. Bəlkə də əvvəlki dövrlərlə müqayisədə bu, o qədər də böyük rəqəm deyildir. Ancaq bu gün dünyada, bölgədə və Avropada yaşanan iqtisadi çətinliklər fonunda hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, - mən bunu sevinc hissi ilə qeyd edirəm, - son illər ərzində qeyri-neft sektorumuz uğurla artır və qeyri-neft sektorumuzda inkişaf 7 faiz səviyyəsindədir. Bu da əlbəttə ki, dediyim məsələlərin nəticəsidir. Çünki əgər biz vaxtilə neft kapitalını insan kapitalına, infrastruktur layihələrinə yönəltməsəydik, bu gün qeyri-neft sektorumuz bu qədər arta bilməzdi. Bəlkə də tənəzzülə uğrayardı və onda biz ancaq neft amilindən asılı ola bilərdik. Gələcək illərdə ayrılan vəsait və aparılan islahatlar qeyri-neft sektorunun daha da böyük çəkiyə malik olmasına gətirib çıxaracaqdır».

Hesabat dövründə Azərbaycanda inflyasiyanın aşağı həddinin qorunub saxlanıldığını diqqətə çatdıran dövlətimizin başçısı insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün ciddi tədbirlərin həyata keçirildiyini, orta aylıq əməkhaqqının artdığını bildirmişdir: «İnflyasiya Azərbaycanda nəinki birrəqəmlidir, hətta 1,6 faiz təşkil edir. Bu, çox gözəl göstəricidir. Xüsusilə nəzərə alsaq ki, ölkəmizə bu qədər həm daxili, həm xarici investisiyalar qoyulur, maaşlar, pensiyalar ildən-ilə qaldırılır, sovet vaxtından qalmış əmanətlər kompensasiya şəklində, MDB-də ən böyük əmsalla, ən qısa müddət ərzində insanlara qaytarılmışdır - bütün bu amillərə baxmayaraq, inflyasiya cəmi 1,6 faizdir. Əhalinin pul gəlirləri isə 4,7 faiz artıb, yəni, inflyasiyanı 3 dəfə üstələyir. İstənilən ölkə üçün bu, ən arzu olunan balansdır. Ona görə bu amillər, iqtisadiyyatımızın əsas göstəriciləri bizə ümid verir deyək ki, biz bu templəri ilin sonuna qədər saxlayacağıq. Ümid edirəm belə də olacaqdır, ümumi daxili məhsul daha da artacaqdır».

Azərbaycanın böyük maliyyə resurslarına malik olduğunu deyən Prezident İlham Əliyev əlavə etmişdir ki, strateji valyuta ehtiyatlarının dinamik artımı respublikamıza böyük infrastruktur layihələrini uğurla icra etmək imkanı yaradır: «Azərbaycan böyük maliyyə resurslarına malikdir. Bu resursları biz özümüz yaratmışıq, bizə heç kim kömək etməmişdir. Azərbaycan xalqının istedadı və düşünülmüş siyasət nəticəsində bunu əldə etmişik. Bu gün dünya miqyasında adambaşına düşən valyuta ehtiyatlarına görə, hesab edirəm ki, Azərbaycan aparıcı, yəni ən qabaqcıl yerlərdədir. Bizim 54 milyarddan çox valyuta ehtiyatlarımız vardır. Bu da bizə inam, əminlik verir, imkan verir ki, bundan sonra da böyük infrastruktur və sosial layihələrimizi icra edək».

Dövlətimizin başçısı qeyd etmişdir ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş sayca üçüncü proqram qısa müddətdə müsbət nəticələrini göstərməyə başlayıb: «Bu il üçüncü regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqramın icrası nəticəsində artıq ilin altı ayında 65 min yeni iş yeri açılmışdır ki, onlardan 52 mini daimi iş yeridir. 2003-cü ildən bu günə qədər - bu proqramlar icra edilməyə başlayandan sonra 1 milyon 300 min iş yeri açılmışdır ki, onlardan təqribən 1 milyonu daimi iş yeridir. Demək olar ki, işsizlik böyük dərəcədə aradan qaldırılmışdır, çox aşağı səviyyədədir. Ancaq onu nəzərə almalıyıq ki, bizim uğurlu iqtisadi və siyasi addımlar nəticəsində Azərbaycanda, - bu da çox sevindirici bir haldır, - əhali sürətlə artır. İldən-ilə artan əhali hökuməti də, əlbəttə ki, daha da fəal olmağa çağırmalıdır. Eyni zamanda, bu, onu deməyə əsas verir ki, yeni iş yerlərinin açılması daimi proses olmalıdır. Biz deyə bilmərik ki, artıq bir milyon daimi iş yeri açılıbdır, gəlin, indi bu məsələyə diqqət yetirməyək. Yox, bu, daimi proses olmalıdır. Sənayeləşmə, kənd təsərrüfatı, yüksək texnologiyalar, digər sahələr sürətlə inkişaf etməlidir ki, biz insanlarımızı gələcəkdə də iş yerləri ilə təmin edə bilək».

*Nazirlər Kabinetinin iclasında çıxış edən iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, kənd təsərrüfatı naziri Heydər Əsədov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov rəhbərlik etdikləri nazirliklərin fəaliyyətindən, 2014-cü ildə müxtəlif sahələr üzrə əldə olunmuş uğurlardan, qarşıda duran vəzifələrdən söz açmışlar.*

İclasda yekun nitqi ilə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, 2014-cü ildə qarşıda duran bütün vəzifələr öz uğurlu həllini tapacaq, infrastruktur layihələrinin həyata keçirilməsində hər hansı ləngimə olmayacaqdır: «Gələn altı ayda biz əlbəttə çalışmalıyıq ki, nəzərdə tutulmuş bütün infrastruktur layihələrini başa çatdıraq. Son illərdə bu istiqamətdə böyük işlər görülmüşdür, amma hələ ki, görüləsi işlər çoxdur. Xüsusilə nəzərə alsaq ki, ölkə qarşısında maliyyə problemi kimi bir problem durmur, - mən bunu giriş sözümdə də demişəm, bizim maliyyə vəziyyətimiz yaxşıdır, kifayət qədər vəsaitimiz vardır, - ona görə, infrastruktur layihələrinin icrası ilə bağlı heç bir yubanma olmamalıdır. Burada əsas şərt keyfiyyət və sürətdir. Əlbəttə ki, bütün aidiyyəti qurumlar keyfiyyətə ciddi diqqət yetirməlidirlər. Elə etməlidirlər ki, xərclənən vəsait lazımi səviyyədə təmin edilsin».

Prezident İlham Əliyev demişdir ki, kənd təsərrüfatında həyata keçirilən islahatlar Azərbaycanın 100 faiz ərzaq məhsulları ilə təminatına xidmət edir: «Elektron kənd təsərrüfatı sistemi, yeni texnikanın, damazlıq mal-qaranın alınması - bütün bunlar bir məqsədi güdür ki, biz fermerlərin həyatını yüngülləşdirək, onlar üçün əlavə gəlir mənbəyi təmin edək. Əlbəttə ki, bu, məsələnin bir tərəfidir, sosial məsələdir, çünki əhalimizin təxminən yarısı kənd təsərrüfatı ilə məşğuldur, aqrar zonalarda yaşayır. Biz bu məsələyə sosial məsələ kimi baxırıq, eyni zamanda, bu, böyük iqtisadi potensiala malik olan məsələdir».

2014-cü ilin «Sənaye ili» elan edildiyini diqqətə çatdıran Prezident İlham Əliyev bu sahədə yeni layihələrin həyata keçirilməsi vacibliyini vurğulamışdır: «Bu il sənaye ilidir. Əlbəttə ki, sənayenin inkişafı diqqət mərkəzindədir. Həm xaricdən, həm daxildən investisiyaların cəlb edilməsi müsbət haldır. Biz investisiyaları xüsusilə sənaye istehsalının artırılmasına yönəldirik, yönəldəcəyik və bu məqsədlə yeni struktur islahatları göz qabağındadır. Texnoparklar yaradılır, dövlət burada da öz üzərinə böyük məsuliyyət götürür, böyük maliyyə töhfəsini verir. Çünki texnoparkların yaradılması, orada təmizlik işlərinin aparılması, infrastrukturun qurulması, yollar, xətlər və sair - bütün bunlar dövlət hesabına olan məsələlərdir. Biz bunu dövlət büdcəsi hesabına özəl sektorun fəaliyyəti üçün edirik. Yəni biz özəl sektora qayğı göstəririk, real praktik addımlar atırıq. İnanmıram ki, indi hansısa bir ölkədə dövlət bu məsələlərlə bu qədər məşğul olsun.

Hesab edirəm ki, texnoparklarla yanaşı, biz sənaye klasterlərinin yaradılmasına başlamalıyıq. Bu da dünyada uğur gətirən bir təcrübədir. İnkişaf etmiş ölkələrdə bu vardır. Bütün məhsulun tsikli bir yerdə cəmləşməlidir - xüsusilə bu layihənin icrası nəticəsində poladtökmə, metallurgiya kombinatının, alüminium sənayesinin inkişafı sahəsində biz bütün bu zənciri - istehsal, emal, kiçik və orta sahibkarlığın inkişafını təmin etməliyik ki, Azərbaycanda son məhsul buraxılsın. Hesab edirəm ki, bu istiqamətdə əlavə tədbirlər də görülməlidir».

Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında bağlı qarşıda duran vəzifələrdən söz açmış, hökumət üzvlərinə tapşırıq və tövsiyələrini vermişdir.

## rəsmi xronika

### Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfəri

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasına rəsmi səfər etmişdir. Həmin gün Romadakı məşhur «Villa Borghese» parkına gələn dövlətimizin başçısı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.

Bu abidə «Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli sərəncamına əsasən ucaldılmışdır. Həmin sərəncama əsasən, Nizami Gəncəvinin yubileyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ilin aprelində abidənin açılışı olmuşdur.

İtaliya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Romadakı «Altare dell Patria» memorial kompleksində naməlum əsgər abidəsini ziyarət etmiş, önünə əklil qoymuşdur.

Həmin gün Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Corco Napolitanonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edilmişdir. Ölkələrimiz arasında əlaqələrin Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı baxımından önəmi vurğulanmış, Azərbaycanın Avropa Şurasında, İtaliyanın Avropa İttifaqında sədrliyi dövründə səylərin əlaqələndirilməsinin vacibliyi qeyd edilmişdir.

Söhbət zamanı energetika sahəsində əməkdaşlığın uğurlu inkişafı vurğulanmış, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verdiyi bildirilmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin müxtəlif aspektləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Senatının sədri Pietro Qrasso ilə də görüşmüşdür. Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin, o cümlədən dostluq qruplarının rolunun önəmi qeyd olunmuş, bu sahədə gələcək əməkdaşlığın daha da möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanmışdır.

Həmin gün dövlətimizin başçısı Romanın «Mercati di Traiano» muzeyində olmuş, burada şəhərin meri İqnatsio Marino ilə görüşmüş və İtaliya jurnalistlərinə müsahibə vermişdir.

Səfər çərçivəsində Prezident İlham Əliyev İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə də görüşmüşdür. Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olunmuşdur. Ölkələrimiz arasında əlaqələrin strateji səviyyəyə qalxdığı bildirilmiş, energetika sahəsində əməkdaşlığın yaxşı perspektivləri olduğu qeyd edilmişdir. Prezident İlham Əliyevin İtaliyaya rəsmi səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi vurğulanmışdır. Görüşdə Azərbaycan-İtaliya əlaqələrinin Avropa İttifaqı ilə əməkdaşlıq baxımından əhəmiyyəti qeyd edilmiş, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.

Həmin gün Romada Azərbaycan-İtaliya sənədlərinin imzalanması mərasimi də olmuşdur.

2 Vergidən yayınan şəxs barəsində cinayət işi başlanmışdır

3 İşəgötürənlər məlumatlandırılır

4 Sadələşdirilmiş vergi üzrə bəyannamələrin təqdim edilməsi müddəti sona yaxınlaşır

5 «ASAN xidmət» Avropa İttifaqı ilə tərəfdaşlığı genişləndirir

# Şikayətlərin sayında azalma müşahidə edilir

2014-cü ilin 1-ci yarımilliyi ərzində dövlət vergi orqanlarına 47625 müraciət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 29,9% çoxdur. Müraciətlərin 98,4%-i ərizə, 1,4%-i şikayət, digərləri təklif olmuş, 146 şikayətin icrası xüsusi nəzarətə götürülmüşdür. Müraciətlərin 73,7%-i müsbət həll olunmuş, 15,5%-i barədə müvafiq izahatlar verilmiş, 4,4%-i əsassız sayılmış, 1,4%-i qismən həll olunmuş, 0,8%-i aidiyyəti üzrə göndərilmiş, 4,2%-i icradadır.

Hesabat dövründə vergi orqanlarına daxil olmuş şikayətlərin 231-i eyni, 44-ü təkrardır, yəni faktiki olaraq şikayətlər cəmi 403 məsələ barədədir. Daxil olan şikayətlərin faktiki sayı ötən ilin müvafiq dövrünə nisbətən 1,2% azalmışdır. Ümumilikdə şikayətlərin 33,7%-i əsassız sayılmış, 39,5%-i üzrə müvafiq izahatlar verilmiş, 11,8%-i müsbət həll olunmuş, 5%-i aidiyyəti üzrə göndərilmiş, 0,6%-i qismən həll olunmuş, 9,4%-i icradadır.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından nazirliyin aparatına 183 müraciət, o cümlədən 103 ərizə, 80 şikayət daxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu müraciətlərin ümumi sayı 11,6%, ərizələrin sayı 16,9%, şikayətlərin sayı isə 3,6% azalmışdır.

2014-cü ilin 1-ci yarımilliyi ərzində Vergilər Nazirliyində 442 vətəndaş qəbul edilmişdir. Həmin vətəndaşların müraciətlərinin 72,5%-i maddi yardım almaq, şəxsi və digər məsələlər, 21%-i vergi orqanlarında işə qəbul olunma, 4,5%-i iş yerinin dəyişdirilməsi, 2%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliklərindən) şikayət ilə əlaqədar olmuşdur.

Cari ilin birinci yarısında vergilər naziri Fazil Məmmədov tərəfindən Mingəçevir, Sabirabad, Göyçay və Xaçmaz rayonlarında ümumilikdə 200 nəfərdən çox vətəndaş qəbul edilmişdir.

# Vətəndaş müraciətləri operativ cavablandırılır

2014-cü ilin yanvar-iyun aylarında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi tərəfindən 78997 sual xarakterli müraciət cavablandırılmışdır. Həmin müraciətlər əsasən elektron xidmətlər (19,1%), o cümlədən elektron imza (6,4%), vergi növlərinin tətbiqi (16,8%), qeydiyyat (14,7%), hesabatlar (11,8%), büdcə, vergi ödəyiciləri və vergi orqanlarının rekvizitləri (4,3%) və s. barədə olmuşdur.

Canlı rejimdə daxil olan müraciətlərin 96,4%-i müfəttiş-operatorlar tərəfindən birbaşa cavablandırılmış, 3,6%-i isə araşdırma aparılması üçün müraciət vərəqəsi tərtib edilmişdir. Araşdırmaya qəbul edilmiş sual xarakterli müraciətlər orta hesabla 2,6 gün ərzində cavablandırılmışdır.

Hesabat dövründə vergi ödəyiciləri tərəfindən 7001 dəfə vergi borcu, 4709 dəfə isə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə edilmişdir. Həmin dövrdə vergi ödəyiciləri 508250 halda mesaj göndərilməklə məlumatlandırılmışdır ki, onlardan 501602-si qısa, 6648-i isə ikitərəfli mesaj olmuşdur.

Birinci yarımillikdə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 1876449 daxilolma qeydə alınmışdır. Vergi ödəyicilərinin «195» Çağrı Mərkəzinin xidmətindən razıqalma səviyyəsi 95,4% olmuşdur.

Yanvar-iyun ayları ərzində ümumilikdə təqdim edilməli olan 548805 vergi bəyannaməsindən 94,5%-i vaxtında, onların da 92,4%-i elektron qaydada təqdim edilmişdir.

# Hüquqpozmalara qarşı mübarizə tədbirləri

*2014-cü ilin 1-ci yarımilliyi ərzində Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə cəmi 351 sayda cinayət işi başlanmışdır.*

Həmin cinayət işlərindən 75-i vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq (bunlardan 52-si külli və xeyli miqdarda gəlir əldə etməklə vergidən yayınma) faktları ilə bağlı səyyar vergi yoxlamalarının nəticələrinə dair materiallar üzrə, 273-ü vergi borcunun ödənilməməsi barədə və 1 iş aksiz markaları ilə markalanmamış malların satış məqsədilə saxlanması faktı barədə vergi orqanlarından daxil olmuş materiallar üzrə, 2-si isə qanunsuz sahibkarlıq faktı ilə bağlı digər hüquq-mühafizə orqanlarından daxil olan materiallar üzrə başlanmışdır. Hesabat dövründə Departamentin İstintaq idarəsində 184 cinayət işi üzrə ibtidai istintaq tamamlanmış, 7 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hesabat dövründə cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı 5 milyon 470 min manat həcmində məbləğin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

İcraatına xitam verilmiş 139 cinayət işindən 95 iş üzrə bəzi müəssisələrin rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri (15 iş üzrə külli miqdarda) ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə barələrində müvafiq qərarlar qəbul edilmişdir.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan edilmiş 9 nəfər şəxs tutularaq Departamentin İstintaq idarəsinə təhvil verilmiş, ibtidai istintaqdan yayınan 269 şəxsin məcburi qaydada gətirilməsi, 81 şəxsin tapılaraq istintaqa gəlməsi, 112 şəxsin isə yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətləri baxılması nəticəsində vergi yoxlamalarından, əmlakın siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 219 nəfər vergi ödəyicisi tapılıb müvafiq vergi orqanlarına təqdim edilmişdir.

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

İyul ayının 10-da Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən Nəsimi rayonu, ak.Həsən Əliyev küçəsi, ev 12 ünvanında yerləşən «Səma LTD» MMC-yə məxsus 6 mebel mağazasında - paytaxtın Nərimanov və Nəsimi rayonlarında yerləşən «Bellona», «Korona», «İstikbal», «Mondi» və «Kitchen House» satış mağazalarında əmlakın siyahıya alınması tədbirləri həyata keçirilmişdir.

Müəssisənin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən, onun 557 min 725,29 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə may ayının 20-də bildiriş göndərilsə də, borc qanunvericiliklə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, may ayının 21-də əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və vergi ödəyicisinə məxsus 334 min 245 manat dəyərində mebel dəstləri müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Həmin gün vergi əməkdaşları tərəfindən Nərimanov rayonu, Əhmədbəy Ağaoğlu küçəsi, ev 9 ünvanda yerləşən, fiziki şəxs Babayev Rəşad Cəbrayıl oğluna məxsus ərzaq mağazasında da əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir. Vergi ödəyicisinin fəaliyyəti araşdırılarkən 5 min 674 manat vergi borcu olduğu aşkar edilmiş, iyun ayının 6-da ona bildiriş göndərilmişdir. Vergi borcu qanunvericiliklə nəzərdə tutulan müddətdə ödənilmədiyi üçün iyul ayının 3-də əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış və mağazada olan 4 min 172 manat dəyərində olan ərzaq və qida məhsulları müvafiq qaydada siyahıya alınmışdır.

# Vergidən yayınan şəxs barəsində cinayət işi başlanmışdır

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə daxil olmuş məlumat əsasında aparılmış əməliyyat tədbirləri nəticəsində müəyyən edilmişdir ki, Bakı şəhəri, ak.H.Əliyev prospekti, 78 ünvanında yerləşən, mebel satışı ilə məşğul olan «Verona Lux» mağazasına faktiki rəhbərlik 2009-cu ildən fəaliyyətini dayandırmış fiziki şəxs Həbilov Rüfət Məhəmməd oğlu tərəfindən həyata keçirilir.

Araşdırma zamanı mağazada satılan mebellərin İtaliya istehsalı kimi təqdim olunduğu, lakin faktiki olaraq Biləcəri qəsəbəsində yerləşən «Səma LTD» MMM-ə məxsus mebel fabrikində hazırlandığı, mebellərin birbaşa fabrikdən evlərə aparılaraq quraşdırıldığı, satılan mebellərə görə sifarişçilərə ciddi uçot blankı olan sənədlərin verilmədiyi, əhali ilə nağd hesablaşma qaydalarının pozulması halları da müəyyən edilmişdir.

Həmin mağazada və fabrikdə keçirilmiş tədbirlər zamanı mühasibatlıq və «qara mühasibatlıq» sənədləri, fəaliyyəti əks etdirən elektron məlumatların saxlanıldığı kompüter prosessorları aşkar olunaraq götürülmüşdür.

Toplanmış materiallar Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinə göndərilmiş və aparılmış səyyar vergi yoxlaması nəticəsində fiziki şəxs Həbilov Rüfət Məhəmməd oğlunun külli miqdar təşkil edən 562 min 483,61 manat və «Səma LTD» MMM-nin 549 min 699,49 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmaları müəyyən edilmişdir.

Hər iki fakt üzrə Departamentin İstintaq idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə cinayət işləri başlanmış və hazırda ibtidai istintaq tədbirləri davam etdirilir.

# «E-hökumət» vətəndaşlar üçün...

## Yeni proqramda dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi nəzərdə tutulur

*Azərbaycanda «E-hökumət»in qurulması dövlətin əsas strateji məqsədlərindən biridir və bu istiqamətdə həyata keçirilən sistemli tədbirlərin miqyasının daha da genişləndirilməsi vacib hesab olunur. Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) bu məqsədlə e-xidmətlərin və informasiya-kommunikasiya texnologiyalarının tətbiqini artırmaq niyyətindədir.*

Nazir Əli Abbasov bildirib ki, əsas prioritetlər dövlət orqanlarında müasir İKT-dən istifadəni genişləndirməklə idarəetmənin yeni metod və mexanizmlərinin hazırlanması, «e-hökumət» infrastrukturunun yeni komponentlərinin yaradılması, dövlət qurumlarının fəaliyyətinin səmərəliliyinin artırılması, şəffaflığın təmin edilməsi, vətəndaşların dövlət orqanları ilə əlaqələrinin daha sadə və münasib üsullarla həyata keçirilməsi, onların «e-hökumət» xidmətlərinə çıxışının daha geniş təmin olunmasından ibarətdir. 2020-ci ilədək «elektron hökumət» xidmətlərinin hamı üçün əlçatan olması başlıca hədəflərdəndir.

Elektron xidmətlərin «bir pəncərə» prinsipi əsasında təşkilinin təmin edilməsi məqsədi ilə www.e-gov.az vahid elektron hökumət portalının yaradılması dövlət orqanlarının bu sistemə inteqrasiyasının sürətlənməsinə təkan verib. Bu istiqamətdə ciddi tədbirlərdən biri elektron imza sisteminin hazırlanaraq istifadəyə verilməsi olub. E-imzanın tətbiqi artıq bütün dövlət qurumlarının elektron xidmətlər göstərməsinə baza yaradıb.

«Elektron hökumət» layihəsi fəaliyyətə başlamasından cəmi bir il yarım keçməsinə baxmayaraq, ölkə vətəndaşlarının marağına səbəb olub, özünə geniş istifadəçi kütləsi toplayıb. 2012-ci ilin dekabr ayından indiyədək 427 min nəfər «E-hökumət» portalı üzərindən 2,7 milyon dəfə e-xidmətlərdən faydalanıb. Portal üzərindən 42 quruma aid 350 e-xidmətdən istifadə olunur. Bu sahədə görülən tədbirlər nəticəsində portala inteqrasiya edilən qurumların və elektron xidmətlərin sayı mütəmadi olaraq artmaqdadır.




Hazırda dövlət qurumları tərəfindən 300-dən artıq xidmət elektron formada təqdim olunur, yaxın müddətdə bu rəqəmin 417-yə çatdırılması nəzərdə tutulub.

RYTN-nin 2014-cü ilin iyun ayından etibarən portalın yeni hazırlanmış daha rahat və intuitiv tərtibata malik versiyasını istifadəyə verməsi e-xidmətlərlə bağlı bir sıra yeni funksiyaların əlavə edilməsinə səbəb olub. Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli qərarına əsasən, «Elektron hökumət» portalının daha da təkmilləşdirilməsi nəzərdə tutulub. Bu qərara uyğun olaraq, dövlət qurumları tərəfindən müvafiq servislər hazırlanıb portala inteqrasiya olunduqdan sonra vətəndaşların elektron xidmətlərdən istifadə zamanı sənədlərin skan edilərək portala göndərilməsi zərurəti aradan qalxacaq. Belə ki, vətəndaşın portalda autentifikasiyası (loqin-parol, e-imza və s. vasitələrlə) kifayət edəcək ki, ona aid sənədlər aidiyyəti dövlət qurumlarının məlumat bazasından avtomatik əldə olunsun.

Yeni «Elektron hökumət» proqramında müəyyənləşdirilmiş əsas hədəflər sırasında elektron xidmətlərin təkmilləşdirilməsi, dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin işinin gücləndirilməsi, regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması, e- xidmətlər göstərilməsi üzrə qiymətləndirmələrin ictimaiyyətə açıqlanması, maliyyə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət sisteminin yaradılması mühüm yer tutur.

«E-hökumət» proqramında dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi, ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi, əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq şəbəkələrinin yaradılması da əsas tədbirlər sırasındadır.

Ümumiyyətlə, bu proses başa çatdıqdan sonra dövlət qurumları e-xidmətlərin göstərilməsi zamanı digər qurumların informasiya sistemlərindən «Elektron hökumət» portalı vasitəsilə lazımi məlumatı onlayn rejimdə əldə edə biləcəklər və bununla da əhaliyə göstərilən e-xidmətlərin elektronlaşma səviyyəsi, çeşidi və keyfiyyəti yüksəlmiş olacaq. Nəticədə, əhalinin «Elektron hökumət» portalından daha səmərəli istifadəsi üçün şərait yaranmış olacaq, onların portaldan istifadəyə marağı daha da artacaqdır.

**Elbrus CƏFƏRLİ**

# Yeni layihə - «Yaşıl market»...

*İqtisadiyyat və Sənaye, Kənd Təsərrüfatı nazirlikləri Bakı şəhərində fermer mağazaları və «yaşıl market»lərin yaradılması ilə bağlı ilk layihəni maliyyələşdirməyə başlayıblar.*

Sahibkarlığa Kömək Milli Fondu (SMKF) paytaxda ilk ixitsaslaşmış «yaşıl market»in tikintisi üçün təxminən 1 milyon manat vəsait ayrılmasına qərar verib. Fondun rəhbəri Şirzad Abdullayev bildirib ki, çısının «Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin inkişafı strategiyası» çərçivəsində kənd təsərrüfatı məhsullarının tədarükü və emalı ilə bağlı özəl tədarük-satış bazalarının, ticarət şirkətlərinin və avtorefrijerator parkının yaradılması, Bakı şəhərinin rayonlarında və iri şəhərlərdə daimi fəaliyyət göstərən ixtisaslaşdırılmış «fermer mağazaları» və «yaşıl marketlər» şəbəkəsinin yaradılaraq sayının artırılması, bununla da kənd təsərrüfatı ləndirilməsi ilə bağlı layihələri maliyyələşdirəcək.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Rizvan Mustafayevin sözlərinə görə, nazirlik aqrar sektorda müasir istehsal-emal-bazar strukturuna malik modellərin reallaşması üçün strateji plan hazırlayaraq hökumətə təqdim edib. Azərbaycanın aqrar-sənaye kompleksinin inkişafı strategiyasının tərkib hissəsi sayılan bu modellərlə bağlı Avropa ölkələrinin - Finlandiya, Danimarka,

**Aqrar sektorda müasir istehsal-emal-bazar strukturuna malik modellərin reallaşması məqsədilə hazırlanan strateji plan hökumətə təqdim edilib**

İspaniyanın təcrübəsi öyrənilib. Aqrar-sənaye kompleksinin əsas istiqamətləri olan iri emal təsərrüfatları şəbəkəsinin genişləndirilməsi və sektorda istehsalın intensiv inkişafının gücləndirilməsi məqsədilə fermer birlikləri təşkil olunacaq. Emal prosesinin ixrac bazarlarının tələblərinə uyğunlaşdırılması, aqroemal müəssisələrinin müasir texnologiyaların tətbiqi nəticəsində istehsal güclərinin artırılması və yeni yüngül yeyinti sənayesi müəssisələrinin yaradılması da əsas meyarlardandır.

layihə çərçivəsində Bakıda 2 logistika mərkəzi və 1 ixtisaslaşmış «yaşıl market»in tikintisi maliyyələşdiriləcək. «Yaşıl market» üçün lazımi avadanlıq və vitrinlərlə təmin olunmuş satış yerləri, soyuducu anbar, fermer mağazaları, avtopark və digər infrastruktur yaradılacaq. Kənd təsərrüfatı məhsullarının və ərzağın müvafiq sanitar-gigiyenik normalara cavab verməsini daim nəzarətdə saxlamaq üçün yeni müasir laboratoriya da yaradılacaq.

İqtisadiyyat və sənaye nazirinin müavini Sahib Məmmədov bildirib ki, dövlət baş-

məhsulları istehsalının stimullaşdırılması və daxili bazarın qorunmasının gücləndirilməsi nəzərdə tutulur. Nazirlik məhsulun istehsalçıdan istehlakçıya çatdırılması mərhələsində mövcud maneələrin aradan qaldırılması, ərzaq bazarında süni qiymət artımının qarşısının alınması, kənd təsərrüfatı və ərzaq məhsullarının qəbulu üzrə ixtisaslaşmış terminalların və onların saxlanılması üçün anbarların yaradılması, həmin məhsulların daşınmasına xidmət edən nəqliyyat infrastrukturunun təşkili, xüsusi ərzaq mağazaları şəbəkəsinin geniş-

**E.CƏFƏRLİ**

# İşəgötürənlər məlumatlandırılır

## *Vergilər Nazirliyi əmək bazarına nəzarəti gücləndirir*

Respublikamızda əmək bazarına nəzarətin daha da gücləndirilməsi məqsədilə son vaxtlar bir sıra qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilib. Bunlar mahiyyətcə əmək ehtiyatlarından səmərəli istifadəyə, əmək bazarında mövcud münasibətlər sisteminin hüquqi müstəvidə tənzimlənməsinə, işçi hüquqlarının etibarlı müdafiəsinə və qeyri-leqal məşğulluğun aradan qaldırılmasına xidmət edir.

«Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 2013-cü il 27 dekabr tarixli Qanun qeyri-leqal məşğulluqla mübarizənin gücləndirilməsi, bu sahədə çevik və səmərəli, müasir tələblərə uyğun iş üsullarının formalaşdırılmasına yaxşı imkanlar açmışdır. Qanunun icrası ilə əlaqədar olaraq, Vergilər Nazirliyinin yaxından iştirakı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) yaradılmış elektron informasiya sistemi işəgötürənlərlə işçilər arasında əmək münasibətlərinin operativ, dəqiq və əhatəli uçotunun aparılması baxımından mühüm əhəmiyyətə malikdir.

Həmin dəyişikliklər əsasında tətbiq olunan mühüm yeniliklərdən biri də əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsidir. Əmək müqaviləsi bildirişi - əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin ƏƏSMN-in elektron informasiya sistemində elektron qaydada qeydiyyata alınması məqsədilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəddir. Əmək Məcəlləsinin 49-cu maddəsinə edilmiş dəyişikliyə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Bundan başqa, qanunvericilikdəki dəyişikliklərə görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi elektron informasiya sisteminə Vergilər Nazirliyinin real vaxt rejimində inteqrasiyasını da təmin etməlidir.

Nazirlər Kabinetinin 6 iyun 2014-cü il tarixli qərarı ilə «Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar» təsdiq edilmişdir. Qaydaların 3-cü bəndində işəgötürənlər və ya onların səlahiyyət verdiyi şəxslər tərəfindən əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi ilə bağlı müddəalar təsbit olunmuşdur. Həmin müddəalara əsasən, əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənlərin və ya onların səlahiyyət verdiyi şəxslərin gücləndirilmiş elektron imzası olmalıdır.




Prosesin həyata keçirilməsində ƏƏSMN-lə yanaşı, Vergilər Nazirliyinin də yaxından iştirakı Vergi Məcəlləsinin tələblərindən irəli gəlir: işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə əsasən, Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə - fiziki şəxslər min manatdan üç min manatadək miqdarda, vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilir.

Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçinin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə isə işəgötürən Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb edilir. Burada «xeyli sayda» dedikdə, on nəfər və ondan çox işçi nəzərdə tutulur. «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Qanun və onun tətbiqi ilə bağlı «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» fərmana əsasən, cinayətin əlamətləri vergi nəzarəti zamanı aşkar olunduqda Cinayət Məcəlləsinin 162-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə ibtidai istintaq Vergilər Nazirliyinə həvalə edilmişdir.

Vergilər Nazirliyi vergi ödəyicilərinin həmin yeniliklərdən irəli gələn məsələlərlə bağlı məlumatlandırılması istiqamətində sistemli işlərə başlayıb. Bu məqsədlə işəgötürənlərə əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə yalnız gücləndirilmiş elektron imza - o cümlədən «Asan imza» vasitəsilə daxil edilməsinin mümkünlüyü izah edilir. Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi ilə bağlı işəgötürənlərin məlumatlandırılması da təmin edilir. Bununla əlaqədar Vergilər Nazirliyinin rəsmi internet saytında elanın yerləşdirilməsi, habelə işəgötürənlərin SMS vasitəsilə məlumatlandırılması həyata keçirilir. Əmək müqavilələri barədə əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil edilməsində işəgötürənlərə zəruri köməklik göstərilir.

Bundan başqa, qanunvericiliyin tələblərinin pozulması halında işəgötürənlərin üzləşəcəkləri sanksiyalar, cərimələr və cinayət məsuliyyəti barədə onlara zəruri xəbərdarlıqlar edilir. Bununla bağlı Vergilər Nazirliyi işəgötürənlər üçün xüsusi xəbərdarlıq forması hazırlamışdır. Həmin formada əmək müqaviləsinin imzalanmamasının, habelə əmək müqaviləsi bildirişinin müvafiq elektron informasiya sisteminə daxil edilməməsinin doğurduğu hüquqi məsuliyyət barədə fiziki və hüquqi şəxslərə ətraflı məlumatlar verilir. Xəbərdarlıq formasında işəgötürənlərə əmək müqavilələrinin bağlanılması ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə müraciət etmək də tövsiyə olunur.

**S.MUSTAFAYEV**

# Elektron xidmətlər şəffaflığa təminatdır

*Son illər ölkəmizdə elektron ödəniş sistemlərindən geniş istifadə, dövriyyədə olan pul kütləsində nağdsız ödənişlərin xüsusi çəkisinin artması və bank sisteminin resurs mənbələrinin əhəmiyyətli şəkildə genişlənməsi müşahidə olunmaqdadır. Bu, iqtisadiyyatın kapitallaşsiya imkanlarının çoxalmasına, faiz dərəcələrinin, eləcə də vergidən yayınma hallarının azalmasına və nəticədə ümumi iqtisadi artımın sürətlənməsinə xidmət edir.*

Son 10 ildə Mərkəzi Bank tərəfindən müasir texnologiyaya malik Milli Ödəniş Sisteminin yaradılması sayəsində ölkədə nağdsız dövriyyənin həcmi əhəmiyyətli dərəcədə böyümüş, 2013-cü ildən bəri nağd pulun manatla geniş pul kütləsində xüsusi çəkisi 20 faiz bəndi azalmışdır. 2013-cü il ərzində aparılmış elektron ödənişlərin həcmi 128 mlrd. manat təşkil etmişdir ki, bu da ÜDM-ə nisbətdə 2,3 dəfə çoxdur.

Bu gün «elektron pul» - vəsait ödənilməsində istifadə edilən plastik kartlar və ya ödəmə kartları insanların müasir texniki imkanlardan istifadəyə mühüm əhəmiyyət verdiyinin göstəricisidir. Bu üsul ənənəvi nağd pul vəsaitindən bir çox xüsusiyyətlərinə görə üstün hesab edilir. Hazırda dünyada plastik kartların müxtəlif növləri mövcuddur. Ancaq onların fəaliyyət sxemləri və prinsipləri faktiki olaraq eynidir: fərq yalnız göstərilən xidmətlərin həcmində və təqdim olunan imkanlardadır.

«Bank of Baku»nun «Mərkəz» filialının əməkdaşı Fərid Əfəndiyevin sözlərinə görə, bankların fiziki və hüquqi şəxslərə təqdim etdiyi müxtəlif plastik kartları vardır ki, bunlar da, əsasən, üç qrupa ayrılır: «Kredit kartlar - hesablaşma zamanı nağd kredit istifadə imkanını yaradır. Ödəmə kartları - hesablaşmanın asan yolunu təmin edir. Debet kartlar isə - bankomat və ya bankın kassalarında yerləşən POS-terminallar vasitəsilə nağd vəsaitlərin alınmasında yardımçı olur. Sahibkarlar kartı ixrac edən bankla razılığa gəlməmişdən əvvəl bankın yetərli sayda kart sahibi olub-olmadığına diqqət etməlidirlər. Əhali kartın mümkün olduqca daha çox yerlərdə qəbul edilməsinə üstünlük verir. Bu baxımdan, kart ixrac edən və ya yayımında vasitəçilik rolunu oynayan banklar həm kart sahibləri, həm də kartı qəbul edən tərəflər arasında uyğun bir bazar yaratmağa çalışırlar. Plastik kartların pul vəsaitlərinin rahat və təhlükəsiz saxlanılmasında da rolu əvəzsizdir. Çünki kart məxfi PİN-kodla qorunur, itirildiyi və ya oğurlandığı hallarda isə hesabdakı vəsait dəyişməz həcmdə qalır».

Dünyanın istənilən nöqtəsində sutkada 24 saat ərzində banka müraciət etmədən bankomatlardan pul vəsaitinin çıxarılmasında, ölkə daxilində və onun hüdudlarından kənarda malların və xidmətlərin, həmçinin internet vasitəsilə həyata keçirilən «on-line» sifarişlərin ödənilməsində, kart hesabındakı hər hansı dəyişikliklər barədə ətraflı hesabatın alınması və şəxsi məsrəflərin, eləcə də gəlirlərin kart hesabı üzrə alınmış çıxarışların əsasında təhlil edilməsi və planlaşdırılmasında plastik kartların böyük rolu vardır. Bu kartların ən böyük üstünlüyü həm də ondadır ki, pulumuzun oğurlanmasını qeyri-mümkün edir. Əgər kart oğurlanarsa, banka xəbər verib ödəməni dayandırmaqla problemi həll etmək mümkündür. Plastik kartlar içərisində ən sadə kartlar alıcılıq qabiliyyəti qeyd olunmuş kartlardır. Bir qayda olaraq, onun üzərində istehsalçının adı, firma nişanı, sahibinin adı və identifikasiya kodu, arxa tərəfdə isə kart sahibinin imzası əks etdirilir.

2014-cü il may ayının yekunlarına görə, ölkədə ödəmə kartlarının sayı ilin əvvəlindən 5,2 faiz artaraq 5967 min ədəd olub. Bu barədə Azərbaycan Mərkəzi Bankının statistik hesabatında deyilir. 2013-cü ilin eyni dövrünün göstəricisi ilə müqayisədə isə onların sayı 13,9 faiz artıb. Kartların ümumi sayından 4850 ədədi debet, o cümlədən 2560 ədədi sosial, 1401 ədədi maaş, 889 ədədi isə digər kartlara aiddir. Onların 1117 ədədini kredit kartları təşkil edir.

AMB-nin hesabatına görə, yanvar-may aylarında bankomatlar və POS-terminallar vasitəsilə ödəmə kartları üzrə ümumi dövriyyə 988 milyon manat, aparılan əməliyyatların ümumi sayı isə 6634 milyon olub. Hesabat dövrü ərzində debet kartlarla əməliyyatların sayı 52235 min ədəd, həyata keçirilən əməliyyat həcmi isə 794 milyon manat olub. Bankomatlar vasitəsilə debet kartlar üzrə 719 milyon manatlıq 4638 min əməliyyat, POS-terminal vasitəsilə isə 48 milyon manatlıq 239 min əməliyyat aparılıb. Cari ilin beş ayı ərzində kredit kartları ilə ümumi məbləği 194 milyon manat olan 1411 min əməliyyat həyata keçirilib. Bankomatlar vasitəsilə kredit kartlar üzrə 108 milyon manatlıq 468 min əməliyyat aparılıb. POS-terminallar vasitəsilə aparılan 607 min əməliyyatın ümumi məbləği isə 42 milyon manat olub.

2014-cü il iyunun 1-nə olan məlumata görə, ölkədə 2462 bankomat fəaliyyət göstərir ki, bunlardan 1379-u Bakıda, 1083-ü isə ölkənin digər şəhər və rayonlarında yerləşir. İl ərzində onların ümumi sayı (2013-cü il iyunun əvvəlinə olan rəqəmlərlə müqayisədə) 119 ədəd, yaxud 5,1% artıb.

2014-cü il iyunun 1-nə 51773 ədəd POS-terminal fəaliyyət göstərib ki, onlardan 36108-i Bakıda, 15665-i digər şəhər və rayonlarda quraşdırılıb. 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə POS-terminalların sayı 20668 ədəd, yaxud 66,43 faiz artıb.

**Fəxriyyə İKRAMQIZI**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Vergi risklərinin idarə olunması

Vergi riski - maliyyə risklərinin bir növü olmaqla, biznes subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin tərkib hissəsini təşkil edir. Vergi risklərinin neqativ nəticələrinin başvermə ehtimalı onların əsas əlaməti kimi qəbul edilir. Nəzəriyyədə həmin əlamətlər iki qrupa bölünür: maddi itkilər, o cümlədən maliyyə itkiləri; sosial, psixoloji, hüquqi xarakterli neqativ hadisələr. Qeyd olunan əlamətlərə yol verilməməsi və təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin sabitliyinin qorunması məqsədilə vergi risklərinin idarə olunması mühüm əhəmiyyət kəsb edən amillərdəndir.

Müasir iqtisadi ədəbiyyatda vergi riski anlayışının müəyyən olunmasına müxtəlif yanaşmalar mövcuddur. Bəzi mütəxəssislərin fikrincə, vergi riskləri - vergi ödəyicilərinin vergi öhdəliklərinin idarə olunması sahəsində fəaliyyət göstərən hər hansı şəxsin və şəxslər qrupunun qeyri-rasional hərəkətləri nəticəsində baş verən neqativ halların maliyyə qiymətləndirilməsi deməkdir. Qeyd etmək lazımdır ki, vergi ödəyicilərinin vergi riskləri əsasən bir neçə faktor əsasında müəyyən edilir. Bunlara daxili (insan faktoru, maliyyə-təsərrüfat fəaliyyətinin idarə olunmasının xüsusiyyətləri, vergi planlaşdırılmasının səviyyəsi və s.) və xarici (vergi qanunvericiliyindəki dəyişikliklər, vergilərin maliyyə hesabatında əks etdirilməsi qaydası, ixrac olunan məhsulların dünya bazarındakı qiymətləri və s.) faktorlar aiddir. Təcrübədə vergi risklərinin yaranma səbəbi kimi daha çox daxili faktorlar, xüsusən də vergi ödəyicilərinin vergi öhdəliklərinin optimallaşdırılması ilə bağlı hərəkətləri (hərəkətsizliyi) əsas götürülür.

*Vergi riskinin statusunun müəyyən edilməsi, vergi riskinin minimallaşdırılması və onun qarşısının alınması ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi nəticəsində vergi risklərinin səmərəli idarə olunmasını təmin etmək mümkündür*

Bir sıra mütəxəssislər isə vergi riski anlayışına birtərəfli yanaşaraq onu dövlət orqanlarının hərəkətləri (hərəkətsizliyi) nəticəsində vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitinin gözlənilmədən özgəninkiləşdirilməsi kimi qiymətləndirirlər. Qeyd etmək lazımdır ki, vergi riskinin anlayışı verilərkən vergi ödəyicilərinin təkcə maliyyə itkilərinə məruz qalması fikirləri ilə məhdudlaşmaq olmaz. Çünki risk nəticəsində əmlak itkisi, biznes fəaliyyətinin səmərəliliyinin zəifləməsi, bank hesablarında əməliyyatların dayandırılması, vergi ödəyicisində vergi yoxlamalarının təyin olunması və s. bu kimi neqativ hallar da baş verə bilər.

Ümumiyyətlə, vergi riskinə vergi ödəyicisinin maliyyə itkilərinə məruz qalmasının mümkünlüyü kimi baxılır. Belə bir risk zamanı vergi ödəyicisi təkcə maliyyə itkilərinə deyil, həm də vergi riski ilə bağlı digər itkilərə məruz qalır. Vergi riski anlayışına daha geniş yanaşan mütəxəssislərin fikrincə, vergi riski elə bir haldır ki, bu zaman vergi ödəyicisi öz əmlakının əlavə vergi məbləğləri şəklində büdcənin xeyrinə alınması, məlumat saxtalaşdırılmasına görə vergi sanksiyalarının və faizlərin tətbiqi, maliyyə-təsərrüfat fəaliyyətində fərqli neqativ hadisələrlə rastlaşır. Vergi riski anlayışına belə yanaşma zamanı onun neqativ nəticələri kimi vergi sanksiyalarının tətbiqi və faizlərin hesablanması əsas götürülür.

Vergi risklərinin yaranmasının səbəbləri vergi qanunvericiliyində ziddiyyətli məqamların olması, qanunvericiliyin tez-tez dəyişdirilməsi, vergi orqanlarının qanunazidd hərəkətləri (hərəkətsizliyi), biznesin qurulmasında vergi ödəyicilərinin səhvləri, qanunvericilik barədə məlumatlandırılmanın aşağı səviyyədə olması və s. amillərlə bağlıdır.

Təcrübə göstərir ki, vergi riskinin səmərəli idarə olunması üçün onun yaranma səbəblərinin aradan qaldırılmasına və yarandığı halda, qanun çərçivəsində neqativ nəticələrinin idarə olunmasına kompleks yanaşma lazımdır. İqtisadi ədəbiyyatda vergi risklərinin səmərəli idarə olunması üçün dörd əsas etap müəyyən olunmuşdur: vergi risklərinin aşkar olunması, vergi risklərinin qiymətləndirilməsi, vergi risklərinin minimumlaşdırılması məqsədi ilə tədbirlərin müəyyən olunması və onların yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsi.

Vergi risklərinin müəyyən olunmasının əsas üsulları təşkilatın hüquqi statusunun, iqtisadi vəziyyətinin və vergi qanunvericiliyinin monitorinqinin aparılması ilə bağlıdır. Vergi riski təsərrüfat subyektinin əməkdaşlarının səhvi nəticəsində baş verərkən, onu, sadəcə olaraq, vergi hesabatlarının göstəricilərinin kameral yoxlanılması ilə müəyyən etmək olar.

Vergi risklərinin qiymətləndirilməsi risk məbləğinin və riskin başvermə ehtimalının müəyyən olunmasını nəzərdə tutur. Risklərin yaranma ehtimalları müəyyən edilərkən onun başvermə tezliyi, ekspertlərin rəyi əsas götürülür.

Vergi risklərinin minumumlaşdırılması onların baş vermə ehtimallarının aşağı salınması və qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə həyata keçirilir. Buna misal olaraq vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq münasibətlərinin qurulmasını, vergitutma əməliyyatlarının aparılmasında vergi məsləhətçilərinin xidmətlərindən istifadə olunmasını göstərmək olar.

Vergi risklərinin idarə olunmasının səmərəliliyinin artırılması bu sahədə xüsusi nəzarət tədbirlərinin həyata keçirilməsini nəzərdə tutur. Belə ki, vergi risklərinin idarə olunmasında peşəkarlığın səviyyəsi aşağı olarsa, təsərrüfat subyektinin maliyyə vəziyyətinə ciddi ziyanın vurulması ehtimalı daha yüksək olur. Məhz vergi riskinin statusunun müəyyən edilməsi, vergi riskinin minimallaşdırılması və onun qarşısının alınması ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi nəticəsində vergi risklərinin səmərəli idarə olunmasını təmin etmək mümkündür.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmək müqaviləsi

***Əmək müqaviləsi bildirişi elektron informasiya sisteminə necə daxil edilməlidir?***

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 49-cu maddəsinin 4-cü hissəsinə əsasən, əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarı ilə «Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar» (bundan sonra - Qaydalar) təsdiq edilmişdir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi ilə bağlı müddəalar Qaydaların 3-cü bəndi ilə müəyyən edilmişdir. Elektron informasiya sisteminə əmək müqaviləsi bildirişinin daxil edilməsi «Elektron hökumət» portalı vasitəsilə həyata keçirilir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsində nəzərdə tutulan dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən işçilərlə işəgötürənlər arasında bağlanılmış əmək müqavilələri istisna olmaqla, digər vəzifələr (peşələr) üzrə işçilərlə işəgötürənlər arasında bağlanılmış əmək müqavilələri, onlarda dəyişikliklər edilməsi və ya xitam verilməsi aidiyyəti işəgötürənlər tərəfindən müvafiq əmək müqaviləsi bildirişi formasında elektron informasiya sisteminə daxil edilməlidir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 315-ci maddəsini nəzərə alaraq, Əmək Məcəlləsi qüvvəyə minənədək mövcud olan əmək qanunvericiliyi əsasında işçilərlə şifahi formada bağlanılmış və yazılı formada tərtib edilməmiş əmək müqavilələri, onlarda şifahi formada dəyişikliklərin edilməsi və ya xitam verilməsi aidiyyəti işəgötürənlər tərəfindən mövcud əmək şəraiti şərtləri və məlumatları əsasında elektron informasiya sisteminə həmin Qaydaların 2.2-ci bəndində nəzərdə tutulan müvafiq əmək müqaviləsi bildirişi formasında daxil edilir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi «Elektron hökumət» portalının gücləndirilmiş elektron imza ilə daxil olmağa imkan verən autentifikasiya vasitələrindən istifadə edilməklə, bilavasitə işəgötürən tərəfindən və ya «Elektron hökumət» portalında yerləşdirilmiş «Səlahiyyətli şəxsin qeydiyyatdan keçirilməsi» xidməti vasitəsilə işəgötürənin səlahiyyət verdiyi şəxslər tərəfindən həyata keçirilir.

**Davamı növbəti sayımızda**

# Sadələşdirilmiş vergi üzrə bəyannamələrin təqdim edilməsi müddəti sona yaxınlaşır

*Qanunvericiliklə müəyyən edilmiş qaydada hər bir vergi növünün ödənilmə və bəyannamələrin təqdim edilməsi müddətləri vardır. Bütün vergi ödəyiciləri vergi öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirməli, vergi bəyannamələrini vergi orqanlarına vaxtında təqdim etməlidirlər. Xatırladaq ki, 20 iyul tarixi növbəti rüb üzrə sadələşdirilmiş verginin ödənilməsinin və bəyannamənin təqdim olunmasının son günüdür.*

Vergi Məcəlləsinə əsasən, sadələşdirilmiş vergi ödəyicisi hüququna malik olan ödəyicilər hər il aprel ayının 20-dən gec olmayaraq bu hüquqdan istifadə edib-etməyəcəyi barədə yazılı məlumatı uçotda olduqları vergi orqanına təqdim edirlər. Vergi ödəyicisinin təqvim ilinin sonunadək seçdiyi metodu dəyişdirmək hüququ yoxdur və ödəyici qeyd olunan müddətdə bəyannaməni və ya yazılı məlumatı təqdim etmədikdə vergi orqanı vergi ödəyicisinin əvvəlki vergi ilində seçdiyi metodu tətbiq edir. İl ərzində yeni fəaliyyətə başlayan vergi ödəyicisi tərəfindən isə vergi uçotuna durmaq üçün ərizədə qeyd etdiyi metod tətbiq olunur.

***Sadələşdirilmiş vergi ödəyiciləri***

Vergi Məcəlləsinin 218-ci maddəsinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120.000 manat və ondan az olan şəxslər sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər. Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (həmçinin taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər; o cümlədən mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər, mülkiyyətində və ya icarəsində olan, habelə məqsədli şəkildə ayrılan ərazidə (torpaq sahəsində) özünə məxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və yaxud müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər,



idman mərc oyunlarının operatoru və satıcıları sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdirlər.

Aksizli mallar istehsal edən şəxslər, kredit və sığorta təşkilatları, investisiya fondları, qiymətli kağızlar bazarının peşəkar iştirakçıları, lombardlar, qeyri-dövlət pensiya fondları, əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edənlər, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri və mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (bu Məcəllənin 218.1.1-ci maddəsində göstərilən şəxslər istisna olmaqla) qalıq dəyəri 1000000 manatdan artıq olanlar isə sadələşdirilmiş verginin ödəyicisi ola bilməzlər.

Sadələşdirilmiş vergi ödəyiciləri malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən Bakı şəhərində 4%, digər şəhər və rayonlarda, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2% dərəcə ilə vergi ödəyirlər. Qeyd edək ki, 2% dərəcəsi o halda tətbiq edilir ki, vergi ödəyiciləri özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə Bakıdan kənar ərazilərdə fəaliyyət göstərmiş olsunlar. Şəhər və rayonlarda, həmçinin Naxçıvan Muxtar Respublikasında vergi uçotuna alınmış, lakin Bakıda fəaliyyət göstərən sadələşdirilmiş vergi ödəyiciləri isə bu vergini 4% dərəcə ilə ödəyirlər. Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi vergitutma obyektinin hər kvadratmetri üçün 10 manat məbləğində ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır.

***Sadələşdirilmiş vergi üzrə öhdəlik necə yerinə yetirilir?***

Sadələşdirilmiş vergi üçün hesabat dövrü rüb hesab olunur. Sadələşdirilmiş verginin ödəyiciləri hesabat dövründən (rübündən) sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanlarına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər isə hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini qanunvericilikdə nəzərdə tutulmuş qaydada tikintinin təməl işlərinin başlandığı rübdə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına bəyannamə təqdim edirlər. Eyni zamanda, həmin vergi ödəyiciləri uçota alındıqları yerdən asılı olmayaraq, mənzil tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi (mənzil tikintisi meydançasının faktiki yerləşdiyi) ərazi (zona) üçün müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər. Bəyannamə vergi orqanına təqdim edildikdən sonra hesablanmış vergi dövlət büdcəsinə bərabər hissələrlə 12,5% həcmində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək ödənilir.

Bütün vergi ödəyiciləri vergi qanunvericiliyinə əməl etməklə mümkün maliyyə sanksiyalarının tətbiq olunmasının, eləcə də faiz hesablanmasının qarşısını ala bilərlər. Vergi bəyannaməsi vergi orqanına vaxtında təqdim olunmadıqda, qanuna əsasən, vergi ödəyicisinə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergi dövlət büdcəsinə qanunla nəzərdə tutulmuş müddətdə və tam həcmdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

**Rəşad SADIQOV**

# Daxili əmək bazarının qorunması zərurətdir

Azərbaycanda əlverişli sahibkarlıq mühitinin formalaşması, çoxsaylı istehsal müəssisələrinin yaradılması yolu ilə yeni iş yerlərinin açılması, tikinti-quruculuq işlərinin geniş vüsət alması, habelə bir sıra transmilli nəqliyyat və enerji layihələrinin reallaşdırılması son illər respublikamıza miqrant axınının sürətlənməsinə səbəb olub.

Yaşadıqları ölkələrdə normal işlə təmin olunmayan və ya yüksək gəlirli iş axtarışında olan əcnəbilər leqal və qeyri-leqal üsullarla Azərbaycana gələrək burada məskunlaşmağa və çalışmağa səy göstərirlər.

Məhz bu səbəbdən də son illər ölkə rəhbərliyi tərəfindən daxili əmək bazarının qorunması, işəgötürənlərlə əcnəbi işçilər arasında münasibətlərin leqallaşdırılması, onların sosial sığorta ödənişlərinə, vergilərə cəlb olunması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilir. Ölkə başçısının 4 mart 2009-cu il tarixli «Miqrasiya proseslərinin idarəolunmasında «bir pəncərə» prinsipinin tətbiqi haqqında» fərmanı əsasında miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər çərçivəsində idarə edilməsinə, bu sahədə operativliyin təmin olunmasına, həllini gözləyən problemlərin aradan qaldırılmasına imkan verən müasir sistem yaradılıb. Miqrasiya proseslərinin «bir pəncərə» prinsipi üzrə vahid dövlət orqanının səlahiyyətlərini həyata keçirən Dövlət Miqrasiya Xidməti (DMX) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı; müvəqqəti olma, müvəqqəti və daimi yaşama; iş icazələrinin verilməsi və müddətlərinin uzadılması; qaçqın statusunun müəyyənləşdirilməsi; vətəndaşlığa qəbul, xitam, bərpa, eləcə də vətəndaşlıq məsələlərinin həlli üzrə müəyyən nizam-intizam yaratmağa müvəffəq olub. DMX-nın rəsmi internet səhifəsində xüsusi elektron xidmət bölməsi yaradılıb. İstənilən şəxsin elektron xidmət bölməsindən maneəsiz, sərbəst istifadəsi, həmçinin elektron qaydada qəbul edilən sənədlərə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə baxılması təmin edilib. Bundan başqa, Azərbaycanda yaşayan və müvəqqəti olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin uçotunun aparılması, miqrasiya proseslərinin idarə edilməsində iştirak



edən dövlət orqanlarının zəruri informasiya ilə təmin edilməsi, sənədləşmə, yoxlama, sorğu və təhlil işlərinin avtomatlaşdırılması və bu sahədə göstərilən elektron xidmətlərin təkmilləşdirilməsi məqsədilə miqrasiya sahəsində Vahid Miqrasiya Məlumat Sistemi (VMMS) yaradılıb. Bu sistem ölkədə qanunsuz miqrasiya ilə mübarizəyə və təhlükəsizliyin təmini sahəsində müvafiq tədbirlərin görülməsinə geniş imkanlar açıb. Hazırda «ASAN xidmət» mərkəzlərində Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşama icazəsinin, o cümlədən iş icazəsinin verilməsi üçün tələb olunan sənədlərin qəbulu və müvafiq icazə vəsiqələrinin verilməsi də həyata keçirilir.

Ötən il Miqrasiya Məcəlləsinin qəbulu bu sahədə müəyyən tənzimləyici tədbirlərin tətbiqinə imkan yaradıb. Məcəlləyə əsasən, əcnəbi və vətəndaşlığı olmayan şəxs əvvəllər Azərbaycanda olarkən ölkəyə gəlişinin bəyan edilmiş məqsədlərini pozduqda, özü və ya səfərinin məqsədi haqqında yalan məlumat verdikdə, yaxud miqrasiya qanunvericiliyini pozduğuna görə son üç il ərzində iki dəfə və ya daha çox inzibati məsuliyyətə cəlb edildikdə onların respublikamıza gəlişinə 5 il müddətinə qadağa qoyulur. Məcəllənin tələbinə əsasən, əcnəbi 180 gün ərzində 90 gündən çox Azərbaycan Respublikasının ərazisindən kənarda olduqda, yaxud ölkəmizdə müvəqqəti yaşadığı dövrdə gəlişinin bəyan edilmiş məqsədini pozduqda ona müvəqqəti yaşamaq üçün icazə verilmir, yaxud əvvəl verilmiş icazə ləğv edilir.

Məcəllədə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı, ölkə ərazisində yaşamalarının əsasları və müddətləri, müraciət və qərar qəbuletmə prosedurları sadələşdirilib. Miqrasiya Məcəlləsi ilə tənzimlənən yeniliklərdən biri də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iş icazələri ilə bağlıdır. Əvvəlki qanunvericilik müvəqqəti yaşama üçün, o cümlədən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin müddətinin dörd dəfədən artıq uzadılmasına yol vermirdisə, indi bu məhdudiyyət aradan qaldırılıb. Sənəddə Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətinin 60 günədək uzadıla bilməsi də öz əksini tapıb.

DMX-dən verilən məlumatlar göstərir ki, hazırda respublikamıza dünyanın müxtəlif dövlətlərindən miqrantlar gəlirlər. Ötən il Azərbaycana gəlmiş 900 minə yaxın əcnəbinin 47,3%-i Rusiya Federasiyasının, 15,9%-i Gürcüstanın, 11,5%-i Türkiyənin, yerdə qalanı isə bütün qitələri əhatə etməklə ayrı-ayrı ölkələrin payına düşüb. Həmin dövrdə 430 min 519 əcnəbi və vətəndaşlığı olmayan şəxs olduğu yer üzrə qeydiyyata alınıb, 46 min 153 şəxsə və onunla birlikdə immiqrasiya edən 18 yaşına çatmamış övladlarına Azərbaycan Respublikasında müvəqqəti və 3125 şəxsə daimi yaşama icazələri verilib, 874 şəxsin ölkə ərazisində müvəqqəti olma müddəti uzadılıb.

Miqrasiya proseslərinin tənzimlənməsi, ilk növbədə, daxili bazarın qorunması zərurəti ilə şərtlənir. Bu baxımdan, DMX müvəqqəti və daimi yaşama qaydalarına əməl olunmaması, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin qanunsuz əmək fəaliyyətinə cəlb edilməsi hallarına qarşı mübarizə tədbirlərini də davam etdirir.

**Samir MUSTAFAYEV**

**aktual**

# Sahibkarların maraqları qorunur

**«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikası Qanununun 12.1-ci maddəsinə əsasən, yoxlayıcı orqan tərəfindən hesabat dövründə sahibkarlar üçün daha aktual suallar önə çəkilməklə, izah edilməsi tələb olunan normativ hüquqi aktların müddəaları ilə bağlı məsləhətlər verilir və görülmüş işlər barədə illik hesabatlar hazırlanır. Vergi ödəyiciləri üçün daha aktual olan istiqamətlər barədə məlumatlandırma işləri aparmaq məqsədilə qəzetimizin bu buraxılışından məlumatlandırma formalarını təqdim edirik.**

## *Vergi Məcəlləsinin 36.3-cü maddəsinə əsasən vergi yoxlaması keçirildikdə, vergi orqanının vergi ödəyicisinin üçüncü şəxslərlə əlaqədar fəaliyyəti barədə vergi yoxlamasının predmetinə aid olan sənədlərin alınması*

Vergi nəzarətinin təmin olunması məqsədi ilə aparılan səyyar vergi yoxlaması zamanı vergi orqanı vergi ödəyicisinin təqdim etdiyi məlumatların yoxlanılması, habelə belə məlumatlar vergi ödəyicisi tərəfindən təqdim edilmədikdə vergi ödəyicisinin vergi öhdəliklərinin müəyyən olunması üçün vergi yoxlaması ilə bağlı sənədləri üçüncü şəxslərdən tələb edə bilər. Bu hərəkətlər üçün vergi orqanının əsaslandırılmış qərarı olmalıdır.

Bu zaman tələb yönəldilən üçüncu şəxs və ya onun səlahiyyətli nümayəndəsi müvafiq sənədləri və ya məlumatları təsdiq edərək, tələbnaməni aldığı gündən 10 iş günü müddətində vergi orqanına təqdim etməyə borcludur.

Göründüyü kimi, vergi orqanı vergi ödəyicisində müvafiq qaydada yoxlamaları, o cümlədən də səyyar vergi yoxlamalarını keçirmək, yoxlamalar zamanı vergi ödəyicisinin maliyyə-təsərrüfat fəaliyyətini əhatə edən sənədləri vergi ödəyicisindən və ya zərurət yaransa, üçüncü şəxsdən alaraq baş vermiş əməliyyatların rəsmiləşdirilməsinin vergi qanunvericiliyinin tələblərinə uyğunluğunu yoxlamaq hüququna malikdir.

*Rubrikanı Vergi ödəyicilərinə xidmət Baş İdarəsi aparır*

# «ASAN xidmət» Avropa İttifaqı ilə tərəfdaşlığı genişləndirir

*Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) icraçı katibi Martin Kreutner Azərbaycanda dövlət qurumlarının fəaliyyətində çevik idarəetmə sisteminin yaradılması, korrupsiya hallarının aradan qaldırılması və şəffaflığın təmin edilməsində hökumətin son illər gördüyü işləri yüksək dəyərləndirmiş, vətəndaş-məmur münasibətlərinin sivil formada qurulmasının müasir formalarını təqdir etmişdir.*

M.Kreutnerin sözlərinə görə, Azərbaycanda vətəndaş-məmur, vətəndaş-dövlət münasibətlərinin təkmilləşdirilməsi, vətəndaş məmnunluğunun əldə edilməsi, insanların problemlərinin həllinin daha rahat mexanizmlərlə həyata keçirilməsi üçün yeni fəaliyyət sahələri yaranıb. Bunun ən bariz nümunəsi son dövrlərin yeniliyi, problemlərə modern yanaşma tərzini özündə ehtiva edən «ASAN xidmət»dir. «ASAN xidmət» ölkəmizin brendi, Azərbaycanın təqdim etdiyi yeni bir mexanizm, fəaliyyət sahəsidir. Çox qısa zamanda fəaliyyətə başlamasına baxmayaraq, qurum Azərbaycan vətəndaşları arasında böyük populyarlıq qazanıb. Hansısa neqativ hallar və bürokratik əngəllərlə rastlaşmayan, daha az vaxt itkisi ilə problemlərinin asan həllinə nail olan insanlar, təbii ki, yeni xidmətin işindən çox məmnundurlar. Müasir demokratik cəmiyyət quruculuğu sahəsində inamla irəliləyən, vətəndaşların sosial rifahını, rahatlığını təmin etmək istəyən dövlətin hədəfləri də məhz budur.

Bu yaxınlarda «ASAN xidmət»in bir sıra beynəlxalq təşkilatlarda və ölkələrdə təqdimatı keçirilib. Xidmətin yaranması, fəaliyyəti, əldə olunan nəticələr barədə məlumatlar ən geniş dairələrdə diqqətə çatdırılıb. Azərbaycanda tətbiq olunan mexanizm artıq Avropada da böyük maraq və rezonans doğurub və bu təcrübədən yararlanmaq istəyənlərin sayı getdikcə artır.

Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin rəhbəri səfir Malena Mard qeyd edib ki, bu xidmət qısa zamanda Azərbaycan vətəndaşları üçün əhəmiyyətli müsbət dəyişikliklərə gətirib çıxarıb: «Avropa İttifaqı «ASAN xidmət»lə əməkdaşlıq edən ilk beynəlxalq tərəfdaşlar arasında olmaqdan qürur duyur. «ASAN» öz xidmətlərini təkmilləşdirdiyi üçün biz gələcək əməkdaşlığımızın davamlılığına ümid edirik».

«ASAN xidmət»in yaradılması ilə son illər əhaliyə xidmət sahəsində ciddi şəffaflıq yaranıb ki, bunun da kifayət qədər səbəbləri var. Prezident İlham Əliyevin məmurlara xəbərdarlığı, onları vətəndaşlarla münasibətdə təvazökar olmağa çağırması, «ASAN xidmət» mərkəzlərinin yaradılması, Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin səlahiyyətlərinin genişləndirilməsi, QHT-lərə Dövlət Dəstəyi Şurasının iştirakı ilə vətəndaş cəmiyyəti institutlarının aktivliyi rüşvət və korrupsiya hallarının azalmasına gətirib çıxarıb. Xüsusilə səlahiyyəti «ASAN xidmət» mərkəzlərinə verilən dövlət qurumları öz fəaliyyətlərində ciddi dönüş yaradıblar.



Dövlət başçısının imzaladığı sərəncama əsasən, hazırda iki mühüm proqram tətbiq olunmaqdadır. Bunlardan biri Açıq Hökumətin Təşviqinə dair Milli Dövlət Proqramı, digəri isə Korrupsiyaya qarşı Milli Dövlət Proqramıdır. Hər iki proqramın mahiyyəti ondan ibarətdir ki, dövlət qurumları öz fəaliyyətlərini bugünkü tələblərə uyğun şəkildə, vətəndaşların istək və arzularını nəzərə alaraq formalaşdırsınlar. Ən əsası isə dövlət qurumlarında sənəd qəbulu zamanı vətəndaşların zamana və maddi xərclərə qənaəti, ölkə ictimaiyyətinin bu və ya digər formada şəffaflığın təmin olunması şərti ilə dövlət idarəçiliyində iştirakıdır.

Prezident İlham Əliyev «The Business Year» nəşrinə müsahibəsində bildirib ki, «ASAN xidmət» dövlət-vətəndaş münasibətlərinə yeni yanaşmanın mütərəqqi modelidir və hazırda «ASAN xidmət» mərkəzləri 10 dövlət orqanının standartlaşdırılmış 30-a yaxın və 28 funksional yardımçı xidmətini həyata keçirir. Ədliyyə, Daxili İşlər, Vergilər nazirlikləri, Əmək Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Sosial Müdafiə Fondu, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti kimi dövlət orqanları ilə birgə xidmət həyata keçirən «ASAN xidmət» mərkəzlərində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər - bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, internet-kafe, poçt şöbələri, fotostudiya da fəaliyyət göstərir. Mərkəzlərdə yerləşdirilən xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Elektron növbə əsasında həyata keçirilən qəbul üçün ən müasir avadanlıq quraşdırılmışdır. Çağrı Mərkəzi vasitəsi ilə vətəndaş bütün dövlət xidmətləri, müraciət üçün tələb olunan sənədlər barədə məlumat ala, növbə tuta və «ASAN xidmət» mərkəzlərinin fəaliyyəti ilə bağlı təkliflərini də verə bilər.

2014-cü ilin sonunadək əlavə olaraq Bərdə, Sabirabad, Masallı, Qəbələdə də «ASAN xidmət» mərkəzləri açılacaq və bundan sonra respublika üzrə bütün «ASAN xidmət» mərkəzləri arasında vahid şəbəkə yaranacaq ki, bu da harada qeydiyyatda olmasından asılı olmayaraq, vətəndaşlara tam xidmət göstərməyə imkan verəcək. Xatırladaq ki, hazırda paytaxt Bakıda bu problem tam həllini tapıb.

«ASAN 2» konsepsiyasına əsasən, «ASAN xidmət» mərkəzlərindəki xidmətlərin elektronlaşdırılması və daha əlçatan olması nəzərdə tutulur. Məmur və vətəndaş arasında təmas və dialoqun minimallaşdırılması istiqamətində «ASAN xidmət» mərkəzlərindəki özünəxidmət köşkləri mühüm rol oynayacaq. Bunun üçün köşklər biometrik məlumatların götürülməsi, nağd və plastik kartlar vasitəsilə ödənişlərin aparılması imkanı ilə təmin ediləcək. Bu konsepsiyada daha bir yenilik «ASAN xidmət» binalarının müasir texnologiyaların tətbiqi sayəsində özünü enerji ilə təmin edən funksiyalara malik olmasıdır. Quraşdırılan Günəş panelləri binanı elektrik enerjisi ilə təmin edəcək.

Onu da qeyd edək ki, ölkədə dövlət-bisnes münasibətlərinin müasir formada qurulmasını və vətəndaşlara daha çevik, operativ xidmətlər göstərməyi əsas məqsədlərindən hesab edən Vergilər Nazirliyi nəzdində Elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzi (Asan SXM) yaradılıb və Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə inteqrasiya olunub. Asan SXM lRəqəmsal ID» adlandırılan lelektron imza» kartları üzərindən xidmət göstərmək imkanına malikdir. Bu kartlar bütün əməliyyat sistemlərini (MS Windows, Unix, Mac OS) dəstəkləyir. Bundan əlavə, Asan SXM Mobil-ID Mərkəzi və mobil operator vasitəsilə mobil imza (lAsan İmza») xidmətini də təqdim edir. Bu xidmət üçün xüsusi SİM kartdan istifadə olunur. Həmin kart həm telefon nömrəsinin, həm də lelektron imza» yaratma məlumatlarının fiziki daşıyıcısıdır.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnformasiya təminatı şöbəsindən aldığımız məlumata əsasən, 15 yanvar 2013-cü il tarixdən bugünə kimi «ASAN xidmət» mərkəzlərinə ümumilikdə 2 milyon 160 mindən çox müraciət daxil olmuşdur. Müraciətlərin 100 minə yaxını son bir ildə həyata keçirilən səyyar «ASAN xidmət» çərçivəsində qeydə alınmışdır.

**Fəxriyyə İKRAMQIZI**

# ÜDM istehsalında artım müşahidə olunmuşdur

*Bu ilin birinci yarısında Azərbaycanda 28,7 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1% çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi 3063,3 manat (3905,2 ABŞ dolları) təşkil etmişdir.*

ÜDM-in 61,1%-i istehsal sahələrində, o cümlədən 46%-i sənayedə, 10,7%-i tikintidə, 4,4%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda istehsal olunmuş, 31,8%-i isə xidmət sahələrinin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,1%-i səviyyəsində olmuşdur.

Bu dövrdə iqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyər 7% artmış, onun ÜDM-də xüsusi çəkisi əvvəlki ildəki 55%-dən 56,3%-dək yüksəlmişdir. Müvafiq olaraq, ÜDM-in 43,7%-i neft-qaz istehsalı və emalı sahələrinin payına düşmüş və əvvəlki ilə nisbətən 3,9% azalmışdır.

Cari ilin altı ayında əvvəlki ilin eyni dövrü ilə müqayisədə turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində əlavə dəyər 14,8%, informasiya və rabitə xidmətlərində 12,6%, tikintidə 9,6%, ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində 8,9%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 5,8%, nəqliyyat və anbar təsərrüfatında 5,1%, sosial və digər xidmət sahələrində isə 4,3% artmışdır.

# Vətəndaş məmnunluğu təmin olunur

*Daşınmaz əmlakın qeydiyyatında vətəndaşlara keyfiyyətli və rahat xidmətlərin göstərilməsi məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müxtəlif xidmətlər həyata keçirilir. Komitə yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələrində Bakı şəhərinin bütün rayonları və respublikanın bölgələri üzrə vətəndaşlara xidmət göstərilir.*

Qeydiyyat prosesinin sadələşdirilməsi, ərazi idarələrində xidmət şəraitinin yüksəldilməsi sayəsində vətəndaşların öz əmlaklarını qeydiyyatdan keçirmək üçün ərazi idarələrinə marağı artıb. Bundan əlavə, aprel ayından etibarən komitə tərəfindən Bakı və regionlarda qeydiyyat idarələrinə gəlmək imkanı olmayan vətəndaşlar üçün xüsusi nəqliyyat vasitələrində mobil qeydiyyat xidmətlərinin göstərilməsinə başlanılıb. Bu xidmət sayəsində əlilliyi olan, sağlamlıq imkanları məhdud insanlar, yaşayış yeri uzaqda yerləşən, müxtəlif səbəblərdən hərəkət çətinliyi olan vətəndaşlar öz əmlakları üzərində hüquqlarını qeydiyyatdan keçirə bilirlər. Daxil olan müraciətlər əsasında indiyədək Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Yevlax şəhərləri, Şəmkir, Göygöl, Daşkəsən, Samux, Gədəbəy, Ağdaş, Qax, Balakən, Ağstafa, Qazax, Göyçay, Kürdəmir, Zərdab, Salyan, Sabirabad, Saatlı, Neftçala, Hacıqabul, Ağcabədi, Füzuli, İmişli, Tərtər, Ağdam, Naftalan və Goranboy rayonlarında, həmçinin bu şəhər və rayonların mərkəzdən uzaq kənd və qəsəbələrində mobil ofislər vasitəsilə vətəndaşlara qeydiyyat xidmətləri göstərilib. Bu xidmətlər fərdi həyət evi, mənzillər, bağ evlərinin, torpaq sahələrinin, qeyri-yaşayış obyektlərinin ilkin və təkrar qeydiyyatı, daşınmaz əmlaka dair planlar, texniki pasportların tərtibi ilə bağlı sənədlərin qəbulundan ibarətdir. İndiyədək mobil ofislər vasitəsilə qeydiyyat xidmətləri göstərilən vətəndaşların sayı 2700-dən çoxdur.

İstifadəyə verilmiş elektron xidmətlər sayəsində vətəndaşların daşınmaz əmlakın qeydiyyatı üçün onlayn qaydada internet vasitəsilə heç bir yerə getmədən müraciət etmək imkanlarının yaradılması da vətəndaş məmnunluğu yaradan amillərdəndir. İndiyədək bu xidmətlər vasitəsilə daxil olan müraciətlərin sayı 61700-dən çox olub.

Ərazi qeydiyyat idarələrinə müraciət edən vətəndaşların sayının artması ilə son iki ildə daşınmaz əmlakın qeydiyyatı sürətlənərək maksimum həddə - 180 minə çatıb. Qeydiyyat prosesinin sadələşdirilməsi, qeydiyyat müddətlərinin qısalması nəticəsində vətəndaşlar mülkiyyət hüquqlarının təkrar qeydiyyatına dair çıxarışları 7 günə, əmlak barədə digər arayışları isə 1 günə əldə edə bilirlər.

**AYTƏN**

# Sərmayəçilərin texnoparklara marağı artır

Azərbaycanda sənaye texnologiyaları parklarının rezidentlərinin 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən, eyni zamanda. parka istehsal məqsədilə gətirilən avadanlıq və texnologiyaların ƏDV-dən azad olunması yerli investorlarla yanaşı, xarici investorların da bu sahəyə marağını artırıb.

2014-cü ilin birinci yarısında texnoparklarda müxtəlif layihələri həyata keçirmək məqsədilə ona yaxın əcnəbi rezident İqtisadiyyat və Sənaye Nazirliyinə (İSN) müraciət edib. Onların təklif etdikləri layihələr üzərində müzakirələr davam etdirilir, dörd şirkətin Sumqayıt Sənaye Parkının rezidentləri siyahısına salınması nəzərdə tutulur. Texnoparkın direktor müavini Zaur Məmmədov bildirib ki, müraciət edən rezidentlər arasında xarici investorlarla yanaşı, yerli şirkətlər də var. Bu amil milli şirkətlərin ölkəmizdə sənayenin yeni modellərinə marağının və sərmayələrini gələcəkdə daha yüksək gəlir gətirəcək sahəyə yönəltmək istəyinin göstəricisi sayıla bilər. Hazırda iki yerli şirkət - «Azertexnolayn» və «Socar Polimer» parkın rezident sərmayəçiləridir.

Sənaye texnoparklarına tətbiq edilən vergi güzəştləri ortamüddətli dövrdə yüksək sənaye istehsalının əldə olunmasına güclü zəmin yaradır. Vergi, gömrük, investisiya və digər güzəştlərin tətbiq olunması, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraitin formalaşdırılması, bu sahədə sahibkarlığın dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi xarici investorların, beynəlxalq maliyyə təşkilatlarının marağına səbəb olub. Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və Dünya Bankı Azərbaycanın bu sənaye sektorunda birgə layihələr həyata keçirməyi təklif edirlər.

Z.Məmmədov bildirib ki, yaxın iki il ərzində Sumqayıt Sənaye Parkının ərazisində 35-40 şirkətin fəaliyyət göstərməsi mümkün olacaq. 2015-ci ilin sonuna qədər parkın yeraltı infrastrukturunun tikintisi başa çatacaq. Sosial obyektlərin tikintisi isə 2014-cü ildə başlayacaq, 2016-cı ilin sonunadək yekunlaşacaq. Texnoparka cəlb olunan yeni şirkətlərin iştirakı ilə əlavə istehsal sahələrinin yaradılması 2018-ci ilədək davam edəcək, bu tədbirlər texnoparkın istehsal coğrafiyasının genişlənməsinə, sənayenin bütün sahələri üzrə məhsul istehsalına imkan verəcək, sənayeləşmənin şaxələnməsini təmin edəcək. Burada qablaşdırma sənayesi, tikinti, energetika, kənd təsərrüfatı üçün gübrə və kimya məhsulları, eləcə də avtomobil istehsalı prioritet kimi nəzərdə tutulur. Qeyd edilən layihələrin peallaşması sayəsində 2017-2018-ci illərdə texnoparkda 10-12 min yeni iş yerinin açılması proqnozlaşdırılır.

Gələcəkdə istehsal olunacaq məhsulların ixracını asanlaşdırmaq məqsədilə ölkənin magistral dəmir yolu xəttinə çıxışını təmin edən ayrıca dəmiryol qovşağının inşası da nəzərdə tutulur. Qovşağın yaxınlığında yükləmə-boşaltma məntəqəsi yerləşəcək. Burada dəmiryol stansiyalarının inzibati binasının inşa edilməsi də planlaşdırılır. Parkın ərazisində rahat və maneəsiz hərəkəti, yüklərin daşınmasını təmin etmək məqsəd ilə müxtəlif təyinatlı dəmir yolu xətləri çəkiləcək.

Fəaliyyətə başladığı hələ iki il omasa da, Sumqayıt Sənaye Parkına daxil olan müəssisələrin istehsal etdikləri məhsullara xarici dövlətlərdən sifarişlərin sayı artmaqdadır. Texnoparkda istehsal olunan yüngül sənaye məhsulları Rusiya, Ukrayna və Gürcüstana ixrac edilir, yaxın vaxtlarda Avropa ölkələrinə mal göndərilməsi nəzərdə tutulur.

İqtisadiyyat və Sənaye Nazirliyindən verilən xəbərə görə, Sumqayıt Sənaye Parkı layihəsi özünü doğrultduğundan, artıq digər texnoparkların da yaxın müddətdə xarici sərmayəçilər üçün açıq sənaye zonasına çevriləcəyi gözlənilir. Layihənin beynəlxalq səviyyədə maraq doğurmur. Dövlət texnopark layihəsinə xarici sərmayəçilərin marağının yüksək olmasını nəzərə alaraq bu modelin digər iri sənaye şəhərlərində, xüsusilə də regionlarda tətbiqinə başlamağı planlaşdırır. İSN bu məqsədlə sənayenin 2014-2017-ci illərə dair inkişaf strategiyasında texnopark layihələrinə daha çox üstünlük vermək niyyətindədir. Ölkə başçısı tərəfindən texnoparklarda yeni investisiya layihəsinin həyata keçirilməsi üçün təşviqedici tədbirlərin görülməsi barədə tapşırıqlar verilməsi İSN-nin də planlarını genişləndirib. Bu məqsədlə Gəncə və Mingəçevirdə sənaye texnoparkının yaradılması üçün qiymətləndirmə işlərinin aparılması, texniki-iqtisadi hazırlıqlara başlanılması nəzərdə tutulur. Həmin şəhərlərin mövcud sənaye potensialı texnoparkların yaradılmasına güclü zəmin yaradır.



Sənaye texnoparklarına tətbiq edilən vergi güzəştləri ortamüddətli dövrdə yüksək sənaye istehsalının əldə olunmasına güclü zəmin yaradır

**Elbrus CƏFƏRLİ**

# Regionlarda e-xidmətlərin tətbiqi genişlənir

*Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (RYTN) regionlarda elektron xidmətləri yaxşılaşdırmaq üçün genişzolaqlı internetin inkişafı layihəsinin tətbiqini genişləndirməyi planlaşdırır.*

Regionlarda İKT və elektron xidmətlərdən istifadə imkanlarının ən yüksək səviyyəyə çatdırılması layihə çərçivəsində telekommunikasiya şəbəkəsinin müxtəlif istiqamətlərinə - ucqar yaşayış məntəqələrinə və magistral şəbəkədə ATS-dən 2 km-dən çox məsafədə yerləşən telefon şkaflarına fiber-optik kabel xətlərinin çəkilişi, kommunikasiya və transmissiya qurğularının yeni xidmətlərə uyğun modernləşdirilməsi, telefonlaşdırılmamış yaşayış massivlərinin, çoxmərtəbəli binaların, qismən telefonlaşdırılmış yaşayış məntəqələrinin ən yeni texnologiyalarla təchiz edilməsi nəzərdə tutulur.

RYTN-dən verilən xəbərə görə, bu cür layihələrin tətbiqi bölgələrdə elektron xidmətlərin və e-ödənişlərin səviyyəsinə də öz müsbət təsirini göstərəcək. Hazırda Azərbaycanın bölgələrində elektron xidmətlərdən istifadə səviyyəsi 10% civarındadır. Bu cür layihələrin icrası regionlarda elektron xidmətlərdən istifadə səviyyəsini 40-50%-ə çatdıracaq. Ümumiyyətlə, İKT-nin inkişafına dair məqsədli proqramların icrası sayəsində elektron xidmətlərin maksimum səviyyəyə çatdırılması nəzərdə tutulub.

RYTN-in göstərdiyi xidmətlərlə yanaşı, «Azərpoçt» MMC də regionlarda vətəndaşlara e-xidmətlər təqdim etməyi nəzərdə tutur. Qurum regionlarda müştərilərin maliyyə və elektron xidmətlərdən maksimum faydalanmasını təmin etmək məqsədilə xidmət infrastrukturunun da yaxşılaşdırılmasına xüsusi əhəmiyyət verir. Niderlandın «Guidion» şirkəti ilə əldə olunmuş razılığa əsasən, «Azərpoçt»un idarəetmə sisteminin yeniləşdirilməsi, texniki sistemin ən son texnologiyalara uyğunlaşdırılması, poçt şöbələri ilə yanaşı, poçt agentliklərinin təşkili nəzərdə tutulur. Əhalinin ödənişləri onlayn rejimdə həyata keçirməsini təmin etmək məqsədilə ucqar kənd rayonlarındakı poçt şöbələrində «smart-kart» tipli sayğacların quraşdırılması da nəzərdə tutulub. E-köşklərin idarə olunmasını həyata keçirən operator şirkətlərlə əldə olunmuş razılığa görə, yaxın 2-3 ay ərzində qurğular istifadəyə veriləcək.

«Azərpoçt» nağdsız ödənişlər sistemində iştirak etmək məqsədilə regionlarda POS-terminal və ATM-lərinin sayını artırmağı planlaşdırır. MMC bu məqsədlə Mərkəzi Banka müraciət edib. Mərkəzi Bankının baş direktoru Rəşad Orucovun sözlərinə görə, hazırda «Azərpoçt»un güclü bank və maliyyə xidmətləri infrastrukturuna malik olması onun maliyyə bazarında fəaliyyətini artırmaqdadır. Dünya Bankı ilə əməkdaşlıq layihəsi ölkəmizin milli poçt operatorunun maliyyə sisteminə uğurla inteqrasiyasına imkan verib. 1000-dək filial və şöbəyə malik olması bu təşkilatın, demək olar ki, hər kənddə mövcudluğunu təmin edir. Mərkəzi Bank bunu nəzərə alaraq, operatorun hesablama əməliyyatları aparması, depozitlər cəlb etməsi üçün «Azərpoçt»a lisenziya verib.

«Azərpoçt» qeyri-bank maliyyə təşkilatı olsa da, Mərkəzi Bank gələcəkdə nağdsız ödənişlər bazarında fəal rolunu artırmaq üçün ona əlavə maliyyə xidmətləri göstərmək səlahiyyətlərini verməyi də istisna etmir.

**Elbrus CƏFƏRLİ**

qara siyahı

# Borclu vergi ödəyiciləri

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin 1-ci bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Vergi Məcəlləsinin 16.1.1-ci maddəsində isə qeyd olunub ki, qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsidir. Məcəllənin 77-ci maddəsinin müddəalarına görə, vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərinin yerinə yetirilməsi üçün cavabdehdir və vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi qaydası və şərtləri yalnız Vergi Məcəlləsi ilə müəyyən edilir.

Vergilər Nazirliyinin apardığı təhlillər göstərir ki, borclu vergi ödəyicilərinin çoxu müxtəlif səbəblərdən yaranmış vergi borclarını mümkün qədər qısa müddət ərzində ödəməyə çalışır və əsasən, buna nail olur. Lakin vergi borclarını ödəmək üçün real imkanları olan bəzi vergi ödəyiciləri qanunvericiliyin tələblərini pozur, hesablanmış vergiləri nəzərdə tutulmuş müddətlərdə dövlət büdcəsinə ödəmirlər.

Bununla əlaqədar olaraq, ayrı-ayrı vergi orqanları üzrə borclarını 2 aydan artıq müddətdə ödəməyən, lakin buna real imkanı olan vergi ödəyicilərinin siyahısının mütəmadi qaydada «Vergilər» qəzetində dərc edilməsi, habelə həmin siyahıların vergi orqanları və vergi ödəyicilərinə xidmət mərkəzlərində yerləşdirilməsi nəzərdə tutulub. Qəzetimizin bu sayında 3 saylı Ərazi Vergilər İdarəsində qeydiyyatdan keçən və vergi borclarını ödəmək iqtidarında olan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur.

Adının «Qara siyahı»ya düşməsini istəməyən vergi ödəyiciləri vergi borclarının qısa müddət ərzində dövlət büdcəsinə ödənilməsini təmin etməlidirlər.

| № | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | 15.07.2014 tarixə borc (manatla) |
|---|---|---|---|
| 1 | MİRZƏYEV FUAD RƏSUL OĞLU | Quba rayonu | 2 306,9 |
| 2 | ABDULLAYEV YAŞAR ABDULLA OĞLU | Xaçmaz rayonu | 2 242,9 |
| 3 | "Uzun meşə" Azərbaycan-Şotlandiya MMC | Quba rayonu | 1 775,2 |
| 4 | ƏYYUBOV SÜLEYMAN ƏŞRƏF OĞLU | Quba rayonu | 1 703,7 |
| 5 | LƏTİFOV ELDƏNİZ ZAHİD OĞLU | Xaçmaz rayonu | 1 611,7 |
| 6 | İSKƏNDƏROV ANAR İSMAYIL OĞLU | Xaçmaz rayonu | 1 441,5 |
| 7 | MƏMMƏDOV ARİF İSAQ OĞLU | Quba rayonu | 1 186,6 |
| 8 | KƏRİMOVA FİRUZƏ TACƏDDİN QIZI | Şabran rayonu | 1 081,2 |
| 9 | MURADOV NÜSRƏT MÜHRƏLİ OĞLU | Quba rayonu | 1 031,7 |
| 10 | HƏSƏNOV ƏNVƏR KAMAL OĞLU | Quba rayonu | 1 016,5 |

vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».

21 iyul - «(1-1)», «3», «4», «8», «9», 10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.



Mehdi Babayev

«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Alış dəyəri 500 manatdan az olan maddi aktivlərin auditi

*Hazırda aparılan audit zamanı bəzi müəssislərdə, əsasən də müxtəlif versiyalı «1C» adlı mühasibat uçotu proqramları ilə uçotunu aparan müəssisələrdə hələ də əvvəlki mühasibat uçotu qanunvericiliyindən miras qalan uçot qaydalarına rast gəlmək olur.*

Belə vəziyyətlər hazırkı mühasibat uçotu tələblərində müəyyən mənada qəbul olunsa da, vergi məqsədləri üçün birmənalı olaraq qəbul edilməyə bilər. Məsələn, ənənəvi uçotdan adlandırdığımız «azqiymətli və tezköhnələn əşyalar» hesab edilən maddi aktivlər maliyyə işçiləri tərəfindən müxtəlif formalarda izah edilir və bəzən düzgün olmayan uçot vergidən yayınma halı yaradır. Lakin hazırda qüvvədə olan mühasibat və vergi qanunvericiliyində maliyyəçilər arasında adı «azqiymətli və tezköhnələn əşyalar» kimi hallandırılan maddi aktivlər və onların uçotu barədə tələbləri düzgün müəyyənləşdirmək mümkündür.

Əvvəlcə köhnə mühasibat qanunvericiliyinin tələblərinə nəzər salaq və azqiymətli və tezköhnələn əşyalarla əlaqədar maraqlı olan üç məqamı xatırlayaq.

1. Əvvəlki qanunlara görə bir çox maddi əşyalar əsas vəsaitlərə aid edilməyərək müəssisələrdə dövriyyə vəsaitlərinin, yəni azqiymətli və tezköhnələn əşyaların tərkibində uçota alınırdı. Məsələn, dəyərindən asılı olmayaraq xidmət müddəti bir ildən az olan əşyalar, təsərrüfat inventarları, ümumi və xüsusi təyinatlı alət və ləvazimatlar, xidmət müddətindən asılı olmayaraq vahidinin və dəstinin dəyəri müvafiq normativ sənədlərlə müəyyənləşdirilmiş əsas vəsaitlərin dəyərinin minimum həddindən aşağı olan əmək əşyaları, vahidinin və ya dəstinin dəyərindən və xidmət müddətindən asılı olmayaraq xüsusi geyimlər, ayaqqabılar və s. əşyalar azqiymətli və tezköhnələn əşya hesab edilirdi.

2. Azqiymətli və tezköhnələn əşyalar anbardan istismara verildikdə onların vahidinin yaxud dəstinin dəyərinin 50%-i miqdarında köhnəlmə hesablanırdı və qalan 50% isə istismar müddətində yararsız olub silindikdə xərclərə aid edilirdi.

3. Hətta vahidinin və dəstinin dəyəri müvafiq normativ sənədlərlə müəyyənləşdirilmiş əsas vəsaitlərin dəyərinin minimum həddinin iyirmidə bir hissəsi qədər olduqda azqiymətli əşyalar istismara verildikdə onların dəyərini birbaşa məsrəflərə aid etmək olurdu.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin İ-06 nömrəli 13 yanvar 2009-cu il tarixli əmri ilə təsdiq edilmiş «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları» və 2006-2009-cu illərdə ayrı-ayrı vaxtlarda təsdiq edilmiş «Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları» qüvvəyə minənədək göstərilən bu üç tələb həm mühasibat, həm də vergi uçotu tələbləri üçün qəbul edilirdi. Xüsusən də vergi uçotunda bu əşyalarla bağlı köhnəlmə və birbaşa xərclərə silinməsi məsələsinin qəbul edilməsinin vergi ödəyicisi tərəfindən gəlirdən çıxılan xərclərinin artırılmasına təsiri var idi.

Hazırda isə təsərrüfat subyektlərinin rəhbərləri bilmədirlər ki, göstərilən bu üç tələb vergi məqsədli uçot üçün qəbul edilmir və azqiymətli və tezköhnələn əşyalar haqqında qüvvədə olan Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən İ-06 nömrəli, 13 yanvar 2009-cu il tarixli Əmri ilə təsdiq edilmiş «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda, həmçinin «Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları»nda bir termin olaraq ayrıca anlayış və şərtlər nəzərdə tutulmayıb. Bu cür anlayışa uyğun gələn maddi aktivlər ehtiyatlar kimi təsnifləşdirilib və hər hansı köhnəlmə qaydasında və istismarda olduğu müddətdə birbaşa xərclərə silinmə metodu yoxdur.

Əvvəllər azqiymətli və tezköhnələn əşyalar əsasən əsas vəsaitlərlə müqayisələndirilərək təsnifləşdirilirdi. Hazırda əsas vəsait anlayışı mühasibat uçotu və vergi uçotu baxımından kifayət qədər fərqləndirici xüsusiyyətləri ilə seçilir. Məsələn, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.17-ci maddəsinin tələbinə görə, vergitutma məqsədləri üçün əsas vəsaitlər istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan, bu Məcəllənin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlərdir. Bu maddənin məzmunundan dolayı vergi ödəyicilərində belə təsəvvür yarana bilər ki, ümumiyyətlə, istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan az olan maddi aktivləri hər iki uçot məqsədləri üçün əsas vəsait hesab etməmək, alınan maddi aktivlər içərisində istifadə müddəti bir ildən çox, lakin dəyəri 500 manatdan az olanları «azqiymətli və tezköhnələn əşyalar» kimi qəbul etmək, bu aktivləri qısa müddətdə silmək və gəlirdən çıxılan xərclərə aid etmək olar, həmçinin ilin sonuna qalıq dəyəri 500 manatdan və ya ilkin dəyərinin 5 faizindən az olan əsas vəsaitlər hələ istismarda saxlanıldığına görə həmin əsas vəsaitləri əsas vəsaitlər hesabından çıxarıb azqiymətli və tezköhnələn əşyalar hesabına qəbul etmək olar. Bu və digər yanaşmaların nə qədər doğru və yanlış olduğunu əsaslandıraq.

*Davamı növbəti sayımızda*

beynəlxalq panoram

# Ukraynada yeni vergi dərəcəsi tətbiq edilib, alkoqollu içkilərə aksiz vergisi artırılıb

*İyulun 1-dən fiziki şəxslərin gəlirlərinə mütərəqqi vergi dərəcəsinin tətbiqi «Ukraynada maliyyə fəlakətinin qarşısının alınması və iqtisadi artım üçün zəmin yaradılması haqqında» Qanundan irəli gəlir.*

İndi ölkədə üç vergi dərəcəsi tətbiq olunacaq: gəlir 500 min qrivnaya (1 qrivna = 0,0672 manat) qədər olduqda 15% baza dərəcəsi, 1 milyon qrivnayadək olduqda 20% və 1 milyon qrivnadan artıq olduqda 25% təşkil edir.

Bu dərəcələr bütün passiv gəlirlərə, xüsusən də dividend, faiz, royalti, investisiyadan gəlirlərə tətbiq edilsə də, əməkhaqqı şəklində gəlirlərə aid deyil.

Xatırladaq ki, Ukraynanın Nazirlər Kabineti Vergi Məcəlləsinə dəyişiklikləri artıq təsdiqləyib.

Onu da qeyd edək ki, Ukraynanın İqtisadi İnkişaf Nazirliyi vergilərin sayının səkkizədək azaldılmasını təklif edib. Bundan başqa, bildirilib ki, Ali Rada banklara xüsusi vergi tətbiq edə bilər.

Yeni qanuna əsasən, iyulun 1-dən ölkədə alkoqollu içkilərə aksiz vergisi artırılıb. Spirt əlavə olunmuş, eləcə də bitki şirəsi və ya aromatik şirələr qarışdırılmış tündləşdirilmiş şəraba aksiz dərəcəsi 25,1% (hər litr üçün 3,58 qrivna) artıb. Qeyd edək ki, bundan öncə Ukraynada tünd şərabların litrinə 2,86 qrivna məbləğində aksiz tətbiq olunurdu.

Bundan başqa, iyulun 1-də köpüklənən və qazlı şərablara aksiz vergisi 0,25% (hər litr üçün 5,2 qrivna) artıb. Bu məhsullar üzrə aksizin əvvəlki dərəcəsi 1 litr üçün 4,16 qrivina idi. Sidr və perri (spirt əlavə olunmamış) üzrə aksizin dərəcəsi 1 litrə üçün 0,50 qrivinadan 0,63 qrivnayadək, yəni 26% artıb.

100% spirtə, etil spirtinə, denaturallaşdırılmamış spirtə, tərkibində 80% və daha çox spirt olan içkilərə, spirt distilyatları və distillə yolu ilə alınan, istənilən qatılıq dərəcəli denaturallaşdırılmış, habelə qıcqırdılmış içkilər və qıcqırdılmış alkoqolsuz içkilərə spirt əlavə edilməsi vasitəsilə alınan spirtli içkilər üzrə dərəcə 25% (70,53 qrivna) artırılıb. Bu içkilər üzrə əvvəlki dərəcə 100% spirtin hər litrinə 56,42 qrivna idi.

# Fransa turizm vergisini 5 dəfə artırmaq barədə qərar verib

*Fransa parlamenti turistlərin mehmanxanalarda qalmasına görə verginin 500% artırılması barədə təklifi bəyənmişdir. Buna baxmayaraq, XİN rəhbəri Lortan Fabius təşəbbüsü kəskin tənqid etmişdir.*

Qanun layihəsinə əsasən, turist mehmanxanada gecələməyə görə 1,5 avro əvəzinə 8 avro ödəməli olacaq. Fabiusun rəyinə görə, bu təşəbbüs işçi yerlərinin yaradılmasında mühüm rol oynayan sahə üçün «təhlükəlidir və turizmin inkişafı prinsipinə tamamilə ziddir».

Bundan başqa, Fransa parlamentinin üzvləri hər gecəyə görə 2 avro məbləğində əlavə vergi tətbiqinin lehinə səs vermişdir. Bu vergi Parisdə qalan turistlərdən tutulacaq.

Mehmanxana biznesi Milli Şurasının prezidenti Roland Eqi də bu cür «sürətli və birmənalı olmayan qərarların» qəbul olunmasını tənqid etmişdir. Onun sözlərinə görə, «sahə nümayəndələri ilə məsləhətləşmədən və razılaşdırılmadan 24 saat müddətində iki verginin yaradılması məsuliyyətsizlikdir».

Fransa ənənəvi olaraq ən populyar turizm istiqamətləri siyahısına daxildir, Paris isə turistlər tərəfindən dünyanın ən maraqlı şəhərlərindən biri kimi qiymətləndirilir. Ötən il Fransanın paytaxtına 15,5 milyon turist gəlmişdir. Bu rəqəm 2012-ci il ilə müqayisədə 8,2% çoxdur.

# İspaniya hökuməti vergiləri azaldacaq

*Bu addım gələn ildən atılacaq. Bu, ilk növbədə IRPF (fiziki və hüquqi şəxslərin) gəlir vergisinin hesablanması üçün bazanın müəyyən edilməsinə aiddir. Gəliri aşağı səviyyədə olan əhali vergi yükünün yüngülləşməsini nəzərəçarpacaq dərəcədə hiss edəcək.*



Ölkədə illik gəliri 24 min avrodan az olanların vergiləri orta hesabla 12,5- 23,5% azalacaq. İspaniya əhlisinin 70%-i isə bu kateqoriyaya aiddir.

Dəyişikliklər gəlir vergisinin həm minimum, həm də maksimum dərəcəsinə tətbiq ediləcək, mütərəqqi dərəcə isə 5 səviyyədən ibarət olacaq. İspaniyanın baş naziri Mariano Raxoyun sözlərinə görə, artıq iyuldan fərdi sahibkarların gəlirlərindən vergi ayırmalarının da azaldılmasına başlanıb.

Xarici ölkələrin təcrübəsi:

# Çex Respublikasının vergi sistemi: *əlavə dəyər vergisi*

*Çexiyada ƏDV əmtəə və xidmətlərin təqdim edilməsinin bütün mərhələlərinə tətbiq olunur.*




Çex Respublikası ərazisində müstəqil iqtisadi fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslər ƏDV ödəyiciləri hesab edilirlər. Əvvəlki ardıcıl 12 təqvim ayı ərzində dövriyyəsi (vergidən azad fəaliyyətlər üzrə dövriyyə istisna olmaqla) 1 milyon çex kronasından artıq (1 yanvar 2015-ci il tarixdən etibarən 750 min çex kronasından artıq) olan vergi ödəyiciləri ƏDV məqsədləri üçün qeydiyyatdan keçməlidirlər. ƏDV məqsədləri üçün qrup qeydiyyata bəzi şərtlərlə yol verilir.

Vergiyə cəlb edilən əməliyyatlar aşağıdakılardır:

- əmtəə və xidmətlərin təqdim edilməsi;
- Aİ üzvü olan digər ölkələrdən malların alınması;
- idxal əməliyyatları.

Qanunla digər hallar müəyyən edilmədiyi halda, vergitutulan dəyər təqdimetmə müqabilində alınan məbləğ (ƏDV nəzərə alınmadan) hesab edilir. Təqdimetmə aksiz və digər vergi və rüsumların obyekti olduğu halda, həmin vergi və rüsumlar vergitutulan dəyərə daxil edilir.

Poçt, KİV, maliyyə, sığorta, tibbi və sosial rifah xidmətləri, torpaq və binaların təqdim edilməsi və icarəsi, lotereyaların və digər oxşar bəxt oyunlarının, həmçinin təhsil xidmətlərinin təqdim edilməsi ƏDV məqsədləri üçün vergidən azad olunan əməliyyatlardır.

ƏDV-nin standart dərəcəsi 21%-dir (1 yanvar 2013-cü il tarixdən əvvəl 20% olmuşdur). Ərzaq və əczaçılıq məhsullarına, kitab və qəzet nəşrinə, sərnişin nəqliyyatı, mədəni tədbirlər və idman yarışlarının təşkilinə, həmçinin otel-mehmanxana xidmətlərinə ƏDV azaldılmış 15% dərəcə ilə tətbiq edilir.

Çex Respublikasında iqtisadi fəaliyyətlə məşğul olan qeyri-rezidentlər rezidentlər kimi vergiyə cəlb edilirlər. Qeyri-rezident sahibkarların seçilmiş əməliyyatlar üzrə ödədiyi ƏDV qarşılıqlı əsaslarla əvəzləşdirilir.

2004-2009-cu illərdə Çexiyada ƏDV-nin standart dərəcəsi 19%, 2010-2012-ci illərdə 20% olmuş, 2013-cü ildən 21%-ə qaldırılmışdır. Bu da Aİ-də və bütün dünyada maliyyə böhranından sonra vergi yükünün istehsaldan istehlaka keçirilməsi siyasəti ilə bağlıdır.

# Özbəkistan və İsveçrə vergilərlə bağlı informasiya mübadiləsi aparacaqlar

İyulun 1-də İsveçrənin Bern şəhərində Özbəkistan Respublikası Hökuməti və İsveçrə Federal Şurası arasında gəlir və kapital üzrə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişə dəyişikliklər edilməsi haqqında protokol imzalanıb.

Özbəkistan Respublikasının Dövlət Vergi Komitəsinin saytında yayılan xəbərə görə, bu Protokolla informasiya mübadiləsinin beynəlxalq standartının tətbiqi çərçivəsində inzibati yardım haqqında müddəalara dəyişiklik edilib.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord




**Yuxarıdan aşağı:** 1.Tutuquşukimilər dəstəsinə aid fəsilə; 2.«Poçt qutusu» filmində Novruzəli obrazını canlandıran aktyorun adı; 3.Obyektin insan şüurunda obyektiv inikas forması, surəti; 4.Romantizm üslubunda yazıb-yaratmış Norveçin dahi bəstəkarı, musiqi xadimi, pianoçu və dirijorun adı; 5.1898-ci ildə ABŞ-da yaradılmış sərinləşdirici içkilər istehsal edən şirkət; 6.Avtomobilin transmissiyasında detal. Fırlanma anını sürət qutusundan təkərlərə ötürən val; 9.Həya, heysiyyət, şərəf, hörmət, qədir-qiymət; 13.Məşhur fransalı aktyorun adı; 15.Tamaşa və konsertin hissələri arasında fasilə, tənəffüs; 16.Dəmiryol, su və hava nəqliyyatında sərnişinlərin və yüklərin qəbulu və yola salınması üçün xüsusi bina və qurğu kompleksi; 17.İnsanın cəmiyyətə və digər insanlara münasibəti baxışından səciyyələndirən həyat prinsipi və əxlaqi keyfiyyət; 18.Qədim Romada dövlət vəzifəsi. Tarixi dövrlərdən asılı olaraq bu vəzifənin məzmunu və funksiyası müxtəlif olmuşdur; 20.Qubadlı rayonunda kənd; 21.Məslək, əqidə.

**Soldan sağa:** 1.Yer səthinin mailliyini ölçən cihaz - son vaxtlar avtomobillərdə daha çox istifadə olunur; 5.Dağ zirvəsinin ən yüksək nöqtəsi; 7.Rusiyada şəhər; 8.Ukraynada çay; 10.Dərin sözünün antonimi; 11.Qəzet və jurnallarda, radio və televiziya verilişlərində ayrıca mövzuya həsr olunmuş bölmə və ya guşə; 12.Yaradan, Tanrı, Rəbb; 14.Öz həcmi, diapazon böyüklüyü, imkanları və tembr rəngarəngliyinə görə musiqi alətlərinin şahı sayılan klavişli-nəfəsli musiqi aləti; 19.Okeanlarda üzən iri buz parçaları. «Titanik» gəmisinin batmasının səbəbkarı; 21.Motorlu və ya yelkənli kiçik gəmi; 22.Çətirçiçəklilər fəsiləsindən çoxillik ot bikisi cinsi. Həmçinin Bakıda qəsəbə adı; 23.Xüsusi hazırlığı, sistematik biliyi olmadan hər hansı bir elm və ya sənətlə məşğul olan adam, həvəskar; 24.Moldova və Rumıniyanın pul vahidi; 25.Biletlərə, bank çeklərinə və s. basma prinsipi ilə yoxlama işarəsi vuran alət.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kodayur; 2.Nikulin *(Yuri)*; 3.Renta; 4.Bronks; 5.Monro *(Merilin)*; 6.Suares *(Luis Alberto)*; 9.Krit; 13.İyul; 15.Fufayka; 16.Benzol; 17.Asbest; 18.Bismut; 20.Salam; 21.Divan.

**Soldan sağa:** 1.Kontrabas; 5.Mis; 7.Dikinson; 8.İnta; 10.Yalta; 11.Karaoke; 12.Enzim; 14.Ştift; 19.Ekskurs; 21.Diffi *(Uitfild)*; 22.Zili; 23.Rekviyem; 24.Lim; 25.İntendant.

Vergilər Nazirliyinin kollektivi
11 saylı Ərazi Vergilər Departamentinin əməkdaşı İsrafil Tağıyevə, anası
**Züleyxa xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14200**

idman

# Velosipedçilərimiz uğurlu çıxışlarını davam etdirirlər




Avropada çıxışlarını davam etdirən velosiped idmanının trek növü üzrə Azərbaycan yığma komandası iyulun 12-də Fransada növbəti yarışda - «Fenioux Trophy Piste» kubokunda iştirak edib. Velosipedçilərimizin çıxışı bu dəfə daha uğurlu olub.

Yığma komandamızın üzvü Olqa İsmayılova 500 metr məsafəyə sprint yarışlarında turniri 2-ci, 200 metr məsafəyə sprint yarışlarında isə 4-cü pillədə başa vurub. Qeyd edək ki, xanım idmançımız 1 gün öncə daha 1 gümüş medal qazanmış və bununla da reytinqinə 72 xal əlavə etmişdi.

Bu dəfə digər velosipedçimiz Yelena Pavluxina da fəxri kürsüyə qalxmağı bacarıb. O, 10 min metr məsafəyə skretçdə mübarizdə 3-cü nəticə göstərib.

Kişilər arasında sprint yarışlarında yığma komandamızın üzvü Sergey Omelçenko 19 nəfər arasında 8-ci, Maksim Buşmin isə 14-cü yeri tutub.

# Azərbaycan güləşçiləri dünyanın ən güclüləri sırasındadır

Dünya arenalarında ölkəmizi layiqincə təmsil edən güləşçilərimiz müxtəlif çempionatlarda, beynəlxalq turnirlərdə dəfələrlə himnimizi səsləndirmiş, bayrağımızı ucaltmışlar. Pəhləvanlarımız ötən il iştirak etdikləri rəsmi beynəlxalq yarışlarda, ümumilikdə, 92 qızıl, 71 gümüş və 135 bürünc medal qazanmışlar.

Azərbaycan Güləş Federasiyasının rəhbərliyi 2013-cü ilin yekunlarına həsr olunan görüşdə idmançılara yeni mövsümdə daha böyük uğurlar qazanmaq tapşırığı vermişdir. 2014-cü ilin idmançılarımız üçün böyük əhəmiyyət kəsb edən çox məsuliyyətli bir təqvim ili olduğu əvvəlcədən məlum idi. Güləş qaydalarında və çəki dərəcələrində edilən son dəyişikliklərə uyğun hazırlaşmaq və qazanılan nailiyyətləri daha da artırmaq bütün növ güləş komandalarımızın qarşısındakı ən əsas məqsəd olmuşdur.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin idmana və idmançılara göstərdiyi diqqət və qayğı, həmçinin Azərbaycan Güləş Federasiyasının prezidenti Fazil Məmmədovun göstərişi ilə yaradılan şərait, maddi-texniki bazanın gücləndirilməsi, mütəmadi olaraq yüksək səviyyədə təlim-məşq toplanışlarının keçirilməsi beynəlxalq arenada güləşçilərimizin uğurlu çıxışına stimul verir.

Qeyd edək ki, bu il yanvarın 1-dən iyulun 1-dək olan müddətdə güləşçilərimiz, ümumilikdə, 229 medal qazanmışlar. Bunların 47-si böyüklərdən, qalanı isə gənc və yeniyetmələrdən ibarət komandalarımızın payına düşür. Qazanılan medalların 80-nin əyarı qızıl, 59-u gümüş, 90-ı isə bürüncdür.

Tanınmış mütəxəssislərin dünya mətbuatında yer almış fikirlərinə nəzər salsaq, görərik ki, artıq digər ölkələr də Azərbaycan güləşçilərinin ən güclülər sırasında yer aldığını qəbul edirlər. Ən böyük uğurlar isə hələ irəlidədir.

# Almanlar Braziliyada tarix yazdılar!

*İyulun 13-də Braziliyada keçirilən futbol üzrə XX dünya çempionatı başa çatmışdır. Qızıl medallar uğrunda mübarizə aparan Almaniya və Argentina milli komandaları qalibi müəyyənləşdirmək üçün 120 dəqiqə ərzində gərgin mübarizə aparmışlar.*

Xatırladaq ki, yarımfinal oyununda çempionata ev sahibliyi edən Braziliya yığmasını darmadağın edən (7:1) almanlar çempionatın favoriti olduqlarını bir daha sübut etmişlər. İkinci yarımfinal oyununda güclü Hollandiya komandasını matçsonrası penaltilərlə məğlub etməyi bacaran argentinalılar da öz iddialarını ortaya qoymuşlar.



Almaniya millisi bundan əvvəl daha üç dəfə - 1954, 1974 və 1990-cı illərdə dünya çempionu olmuşdu. Argentina isə 1978 və 1986-cı illərdə mundialın qızıl medallarına yiyələnmişdi. Bu oyunadək Almaniya və Argentina milliləri öz aralarında 20 dəfə görüşmüşdülər. Həmin qarşılaşmaların 9-da Argentina, 6-da Almaniya qalib gəlmiş, 5 oyun isə heç-heçə nəticələnmişdi. 1986-cı ildə keçirilən dünya çempionatının finalında Argentina komandası almanları 3:2 hesabı ilə məğlub etmişdi. 1990-cı ildə isə Almaniya bu məğlubiyyətin əvəzini çıxa bilmişdi: final görüşündə əzəli rəqiblərinə 1:0 hesabı ilə qalib gələrək, dünya çempionu adına layiq görülmüşdü.

Məşhur «Marakana» stadionunda baş tutan final oyununu italiyalı baş hakim Nikola Rizzolini idarə etmişdir. Oyunun əsas vaxtında hesab açılmadığından, qalib matça əlavə olunmuş 30 dəqiqədə müəyyənləşmişdir. Görüşün 113-cü dəqiqəsində almaniyalı futbolçu Mario Götzenin vurduğu qol sayəsində Almaniya millisi dördüncü dəfə dünya çempionu adını qazanmışdır. Yeri gəlmişkən, bir gün əvvəl üçüncü yer uğrunda keçirilən oyunda hollandlara 3:0 hesabı ilə uduzan braziliyalılar yalnız 4-cü yerlə kifayətlənmişlər.

Oyun başa çatdıqdan sonra mükafatlandırma mərasimi keçirilmişdir. Turnirin ən yaxşı qapıçısı almaniyalı Manuel Neuer, ən yaxşı hücumçusu argentinalı Lionel Messi seçilmişlər. Sonda Braziliyanın dövlət başçısı xanım Dilma Ruseff və FİFA-nın prezidenti Jozef Blatter Dünya Kubokunu Almaniya millisinin kapitanı Filipp Lama təqdim etmişlər. Mundial möhtəşəm atəşfəşanlıqla yekunlaşmışdır.

mozaika

## Kompasın əqrəbi niyə məhz şimalı göstərir?

maraqlı



Kompasın əqrəbi adi maqnitdən başqa bir şey deyil. Bildiyimiz kimi, hər bir maqnitin şimal və cənub adlı iki qütbü var. Maqnitin maraqlı xassələrindən biri eyni qütblərin birbirini itələməsi, fərqli qütblərin isə birbirini cəzb etməsidir. Yəni əgər maqniti qarşı-qarşıya qoysaq, onların eyni adlı qütbləri bir-birini itələyəcək, müxtəlif adlı qütbləri isə birbirini cəzb edəcək. Yer kürəsinin şimal və cənub maqnit sahəsi isə coğrafi olaraq müəyyən edilən şimal və cənub qütblərinə yaxındır. Kompasın ilk nümunələrinin eramızdan 200 il əvvəl Çində hazırlandığı ehtimal edilir. Bu ilk kompasların əqrəblərini maqnit xüsusiyyətinə malik daşlar əvəz edirdi. Maqnitləşmiş əqrəblərdən istifadə edilən kompaslar da ilk dəfə VII əsrdə Çində hazırlanmışdır. X əsrdən etibarən isə kompaslardan bütün dünyada istifadə olunmağa başlanmışdır.

## Heyvanlar da yuxu görürlərmi?

Aparılan tədqiqatlar bəzi heyvanların yuxu gördüklərini təsdiqləyir. Məməli heyvanların böyük bir hissəsinin yuxu gördüyü çoxdan məlumdur. Əgər pişik, ya da it saxlayırsınızsa, yatarkən onların gözlərində, ağızlarında yuxu gördüklərinin əlamətlərini müşahidə edə bilərsiniz. Çox güman ki, onlar yaddaşlarında saxladıqları müxtəlif «vizual informasiyalardan» meydana gələn yuxular görürlər. Bəzi quş növləri də yuxu görürlər. Hətta məməlilər arasında yexidnadan başqa bütün hüyvanların yuxu gördükləri müəyyən edilmişdir. Sürünənlərin yuxu görməməsi isə sabit bədən temperaturu ilə (istiqanlılıqla) əlaqələndirilir.



## «At gücü» nədir?



Traktorun və ya maşının gücünü göstərmək üçün «at gücü» ifadəsindən istifadə edirlər. Bu sözü artıq hamımız eşitmişik, amma onun haradan gəldiyini çoxumuz bilmirik.

Lap qədimlərdə insanların yeganə köməkçisi atlar idi. Atlardan minik kimi istifadə olunur, yük daşıyır və yer şumlayırdılar. Belə çıxırdı ki, insana yalnız «at gücü» kömək edir. Nə vaxt ki maşınlar işıq üzü gördü, onlar atdan qat-qat çox iş görməyə başladılar. Dünyada hər şeyin ölçü vahidi var: vaxt - saniyə, çəki - milliqram, qram, məsafə - santimetr, metr və s. Beləliklə, maşınların da işgörmə qabiliyyətini «at gücü» ilə ölçməyə başladılar.

## Uşaqları izləməyə imkan verən qolbağı

texnologiya

*Cənubi Koreyanın LG şirkəti balaca uşaqların valideynlərinin onları izləməsinə imkan verən KizON qolbağının anonsunu təqdim etmişdir. Bu barədə LG şirkətinin saytında xəbər verilir.*



Şirkətin saytındakı xəbərdə deyilir: «KizON məhz məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlar üçün yaradılmışdır. Qurğu GPS və Wi-Fi vasitəsilə real vaxt rejimində geolokasiya informasiyasını ötürür və beləliklə, valideynlərin smartfon vasitəsilə uşaqlarını izləməsinə imkan verir». Valideynlər həmçinin uşağın hər hansı bir konkret yerdə nə vaxt olacağından xəbər tuta biləcəklər.

Bundan başqa, KizON qolbağında bir düyməni basmaqla uşaq oraya yazılmış nömrəyə zəng edə biləcəkdir. Qurğunu 4.1 və daha yüksək platforma versiyasında Android-smartfona qoşmaqla nömrəni yazmaq olar.

Valideynlər də uşağın qolundakı qurğuya zəng edə bilərlər, özü də yalnız müəyyən olunmuş nömrələrin zəngləri düşəcəkdir. Əgər uşaq 10 saniyə ərzində zəngə cavab verməsə, KizON avtomatik surətdə mikrofonu işə salacaqdır ki, valideyn uşağın ətrafında nə baş verdiyini eşitsin.

İstehsalçının bildirdiyinə görə, qurğu cərəyan mənbəyinə qoşulmadan 36 saat işləyə bilər. Cərəyan bitdikdə valideynlərə smartfonla xəbər gələcəkdir. KizON qolbağı rütubətədavamlı poliuretandan hazırlanmışdır, multfilm personajları ilə tərtib olunmuş bu qurğu mavi, çəhrayı və yaşıl rənglərdə buraxılacaqdır.

KizON qolbaqları Cənubi Koreyada iyulun 10-dan alıcılara təklif olunmuşdur, ilin sonunadək isə qurğu Avropa və Şimali Amerika bazarlarında satışa çıxarılacaqdır. Onun dəqiq qiyməti isə hələ göstərilmir.

Hazırda daşınan elektronika texnologiya bazarının ən aktual trendlərindən biridir. IDC proqnozlarına görə, 2014-cü ildə bu tip qurğuların satışı üççat artacaq və 19 milyon vahidə çatacaqdır. İstehsalçılar istifadəçiləri uşaq yaşından qacet gəzdirməyə öyrətməklə özləri üçün gələcəyin potensial loyal auditoriyasını yarada biləcəklər.

sağlam həyat tərzi

## Şirin bibər xərçəngin və insultun dərmanıdır

Bolqar bibəri ən faydalı tərəvəzlərdən biri sayılır. Onu mümkün qədər çox yeməyi məsləhət görən alimlər bildirirlər ki, tərəvəzin ətli hissəsi mikroelementlərin və faydalı maddələrin tərkibinə və kombinasiyasına görə unikaldır. Bu xassələrinə görə bibər xərçəng xəstəliklərindən ən yaxşı qoruyucu vasitədir. Üstəlik, sinir sisteminə də yaxşı təsir göstərir.

Mətbəxdə bolqar bibərindən geniş istifadə olunması orqanizmi stressə davamlı edir, insanda həyəcan, narahatlıq və təşviş hissinə meyli zəiflədir. Bunu tərəvəzin tərkibində «xoşbəxtlik hormonu»nun, başqa sözlə, bibərin aromatik maddələrinin əmələ gətirdiyi endorfinlərin olması ilə izah edirlər. Bibər artrit və başağrısında faydalı olan kapsaitsinlər, yod, fosfor, dəmir, silisium, kalium, kalsium, natrium və s. ilə də zəngindir.

Alimlər bildirirlər ki, hər gün şirin bibər yemək insultun yaranması riskini yarıya qədər azaldır. Tərəvəzin ətli hissəsində olan B6 və B9 vitaminləri damarların qocalmasını ləngidir. Şirin bibər ateroskleroz düyünləri də xeyli azaldır. Onun tərkibində qocalma prosesini ləngidən antioksidantların olması xüsusi əhəmiyyət daşıyır.

## Müdriklər deyib ki...

***«Pul ilə insan münasibətləri bənzərdir: insan pulun saxtasını düzəldər, pul da insanın...»***

*İohann Volfqanq fon Höte (1749-1832)*

